www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 sentyabr 2019-cu il Çərşənbə № 192 (7362) Qiyməti 60 qəpik

**Xəbər**

## Dövlətə xəyanətdə təqsirləndirilən MTN-çi hakim qarşısında

yazısı səh.14-də

**Gündəm**

### Səudiyyədə yanan neftin "tüstüsü" Azərbaycan sərhədinə çatdı-təhlükə



Səudiyyə Ərəbistanında iki neftayırma zavoduna hücum İranla müharibə üçün bəhanə ola bilər

yazısı səh.9-da

### Müxalifətin bitməyən "ana" qovğası

yazısı səh.7-də

### Azərbaycanda xeyriyyəçi milyarderlər niyə çox deyil?

yazısı səh.4-də

### Bizi bu səbəbdən sayırlar-əhalinin siyahıyaalınması başlayır

yazısı səh.6-da

### Müxalifət qışdakı seçkilərlə bağlı qərarsızdır

yazısı səh.7-də

### Rusiyalı məmurun Naftalanda çimdiyi «şokolad vannası» haqda yeni bilgilər

yazısı səh.14-də

### İspandilli "Qarabağ" "Sevilya"ya qarşı-bizə "əjdaha" lazım deyil...

yazısı səh.15-də

### Bələdiyyələr "ölü basdırmaqdan" qazanacaqlar-üç aylıq sürəc

yazısı səh.10-da

### Bölgədə böyük sülhün yeganə formulu: "Qarabağ Azərbaycanındır, nöqtə"

yazısı səh.11-də

### Ankara sammiti Suriyanın taleyini həll etdimi?

yazısı səh.12-də

# ERMƏNİSTANDA QALMAQALLI İSTEFALAR - PAŞİNYAN MEYDANDA TƏK QALIR

İslahatları vəd olaraq qalan inqilabçı baş nazirin komandasında dərin çatlar yaranıb; baş kəşfiyyatçı öz vəzifəsini itirdi; güc strukturlarının digər rəhbərləri də istefaya göndərilə bilər - səbəblər...

yazısı səh.8-də




## Əməkdaşlarımız Vidadi Zeynalovun məşhur restoranını tapdı - özü nələr dedi?

"Rabitə işi" üzrə tutulan və həbsdən yeni çıxmış sabiq aparat rəhbəri Çuxuryurd kəndində istirahət mərkəzi işlədir; "Yeni Müsavat"a nələr danışdı?

yazısı səh.5-də



Hacıbala Abutalıbov

### Bakıda Fukusima kimi "qəza"-yaponlar Abutalıbova demişdilər ki...

yazısı səh.10-da



### Ötən əsrin ən böyük dühası - bu gün Üzeyir Hacıbəylini yad edək!

yazısı səh.3-də



### İsa Qəmbər Müsavat başqanlığına qayıdır - iddia və gözləntilər

yazısı səh.4-də



## Prezident İlham Əliyev gürcüstanlı naziri qəbul edib

**Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 17-də Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri xanım Natiya Turnavanı qəbul edib. Natiya Turnava Gürcüstanın baş naziri Georgi Qaxarianın salamlarını dövlətimizin başçısına çatdırıb.**

Görüşdə Azərbaycanla Gürcüstan arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib, iqtisadi sahədə əməkdaşlığın ayrı-ayrı istiqamətlərdə genişlənməsindən məmnunluq ifadə olunub.

Söhbət zamanı iqtisadiyyatın şaxələndirilməsi hesabına ticarət dövriyyəsinin genişləndirilməsi, tranzit yükdaşımalarının həcminin artırılması məqsədilə Bakı-Tiflis-Qars dəmir yolunun imkanlarından istifadə edilməsi məsələləri müzakirə edilib, energetika, sərmayə qoyuluşu, elektroenergetika, turizm sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı baş nazir Georgi Qaxarianın salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Gürcüstanın baş nazirinə çatdırmağı xahiş edib.

## Xamenei ABŞ-la danışıqlar aparılmasının əleyhinədir

**İranın Ali dini lideri ayətullah Əli Xamenei ABŞ-la istənilən səviyyədə danışıqların aparılmasını istəmir. Bu barədə Tasnim agentliyi məlumat yayıb. "İran və ABŞ hakimiyyəti arasında istənilən səviyyədə danışıqlar olmayacaq. Bu cür əlaqələrin olması ABŞ-ın İrana təzyiq siyasətinin uğuru deməkdir",- deyə Xamenei bildirib.**

## Bakıda hava dəyişkən buludlu olacaq

**Sentyabrın 18-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu Abşeron yarımadasında gecə 18-21, gündüz 26-29, Bakıda gecə 19-21, gündüz 27-29 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət 50-60 faiz olacaq.

## 7 il əvvəl arvadını öldürənin məhkəməsi başladı

**Bakı Ağır Cinayətlər Məhkəməsində həyat yoldaşını öldürməkdə təqsirləndirilən Nazim Cəfərovun cinayət işi üzrə hazırlıq iclası keçirilib. Virtualaz.org bildirir ki, hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən prosesdə anket məlumatları dəqiqləşdirilib, baxış iclası sentyabrın 24-nə təyin edilib.**

Qeyd edək ki, 6 il əvvəl baş verən cinayət işinin üstü bu ilin mart ayında açılıb.

Daxili İşlər Nazirliyinin məlumatına görə, polis və prokurorluq orqanları tərəfindən həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində 2013-cü il yanvarın 6-dan itkin düşmüş şəxs kimi Səbayel Rayon Polis İdarəsinin (RPİ) 8-ci Polis Bölməsi (PB) tərəfindən axtarışa verilən Kamilə Cəfərovanın həyat yoldaşı, Qobustan qəsəbə sakini Nazim Cəfərov tərəfindən qətlə yetirildiyi müəyyən edilib.

N.Cəfərov Səbayel Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təhvil verilib.

Araşdırma zamanı müəyyən edilib ki, N.Cəfərov 2012-ci ilin sonlarında yaşadığı Qobustan qəsəbəsində K.Cəfərovanı kəsici alətlə qətlə yetirəndən sonra meyitini qəsəbə ərazisindəki su hövzəsinə atıb.

2013-cü il noyabrın 20-də qadının meyiti qeyd edilən yerdən çürümüş vəziyyətdə aşkar edilsə də, həmin vaxt onun şəxsiyyətini müəyyən etmək mümkün olmayıb.

Faktla bağlı Cinayət Məcəlləsinin 120.1 (Qəsdən adam öldürmə, yəni digər şəxsi qəsdən həyatdan məhrumetmə) maddəsi ilə cinayət işi başlanılıb. Saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

# Gültəkin Hacıbəylinin "Lexus" və "Toyota Avalon" maşınlarına, mənzilinə həbs qoyuldu

**Nəsimi Rayon Məhkəməsi sabiq deputat Gültəkin Hacıbəyli ilə keçmiş qayınanası Nəhayət Məmmədova arasında 6 ildir davam edən 50 min dollarlıq borc mübahisəsi ilə bağlı qərar verib. Virtualaz.org xəbər verir ki, hakim Pərviz Hüseynovun sədrliyi ilə keçirilən məhkəmədə Nəhayət Məmmədovanın iddiası təmin olunub. Qərara əsasən, Gültəkin Hacıbəyli keçmiş qayınanasına 85 min manat ödəməlidir.**



Qeyd edək ki, Nəhayət Məmmədova iddiasında G.Hacıbəylinin Səməd Vurğun küçəsi, 92A ünvanında yerləşən 12 saylı mənzili təmir etmək adı ilə ondan 50 min dollar məbləğində pul aldığını bildirib. Həmin mənzil Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən deputata hədiyyə edilib.

Lakin sonradan bəlli olub ki, alınan pul evin təmirinə xərclənməyib. Buna görə də Məmmədova keçmiş gəlinindən pulu tələb edib. Nəhayət Məmmədovanın şikayəti əsasında Gültəkin Hacıbəyliyə məxsus "Lexus LX 570" və "Toyota Avalon" markalı iki bahalı avtomobilinə, eləcə də mənzilinə həbs qoyulub.



## Borca görə axtarışda olan daha 12 nəfər saxlanıldı

**Sentyabrın 16-dan 17-dək daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumat açıqlanıb.**

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 13 cinayətin üstü "isti izlər"lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalmış 10 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 26 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 12 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında 3 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 3 nəfər ölüb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 2 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 14 nəfər saxlanılıb.



## Köçəryan həbsdə qaldı

**Ermənistanda hakim Anna Danibekyanın sədrliyi ilə keçirilən məhkəmə eks-prezident Robert Köçəryanın həbsdə qalması barədə qərar çıxarıb. Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, müvafiq qərar bu gün birinci instansiya məhkəməsi tərəfindən qəbul edilib.**

"Məhkəmə həbsdən dərhal azad edilməsi barədə ərizəni rədd etmək qərarına gəldi. Qərardan Apelyasiya Məhkəməsinə şikayət verilə bilər", - deyə Anna Danibekyan bildirib.

Xatırladaq ki, eks-prezident Robert Köçəryan 2008-ci ilin 1 mart hadisələri ilə əlaqədar açılan cinayət işi çərçivəsində Ermənistanın konstitusiya quruluşunu devirməkdə təqsirli bilinir.

Yeri gəlmişkən, qeyd edək ki, prosesin keçirildiyi məhkəmə binasının qarşısında keçmiş prezidentin tərəfdarları və əleyhdarları toplaşıblar.

Bina qarşısında paralel şəkildə dayanmış dəstələrin arasına polis qüvvələri yerləşdirilib.

Məhkəmə qarşısına toplaşan Köçəryan tərəfdarları "Köçəryan qəhrəmandır!", əleyhdarları isə "Ömürlük həbs tələb edirik" şüarları səsləndiriblər.

Onu da qeyd edək ki, sentyabrın 12-də keçirilən məhkəmə prosesi zamanı aksiya iştirakçıları arasında qarşıdurmalar yaşanmış, polis bir neçə nəfəri saxlamışdı.

## Xaricə gedən azərbaycanlıların sayı artıb

**Bu ilin yanvar-avqust aylarında xarici ölkələrə səfər edən Azərbaycan vətəndaşlarının sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 20,7% artaraq, 3 729 200 nəfər olub.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ölkə vətəndaşlarının 36,4%-i İrana, 29%-i Gürcüstana, 17,5%-i Rusiyaya, 11,6%-i Türkiyəyə, 5,5%-i isə digər ölkələrə gedib. Gedənlərin 63,8%-ni kişilər, 36,2%-ni qadınlar təşkil edib.

Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 48,1%, Gürcüstana gedənlərin sayı 13,3 %, Rusiyaya gedənlərin sayı 7,4%, Türkiyəyə gedənlərin sayı isə 5,1% artıb.

## "Kölgəyə çəkilən" tanınmışlar indi nə işlə məşğuldur?

**Bir zamanlar Azərbaycanın ictimai-siyasi həyatında aktiv olan şəxslər var ki, onlar uzun müddətdir ki, mətbuatdan kənar qalıblar. Onlar haqqında məlumatlar yayılmır, özləri də baş verən siyasi proseslərə münasibət bildirməyə təşəbbüs göstərmirlər. Bəs hazırda həmin siyasi liderlər nə işlə məşğuldurlar? Bu məsələ ilə bağlı kiçik araşdırma apardıq.**

Məlum olduğu kimi, 2014-cü ildə Müsavat Partiyasının başqanlığından gedən İsa Qəmbər hazırda Milli Strateji Düşüncə Mərkəzinin sədridir. Xatırladaq ki, İsa Qəmbər 1992-93-cü illərdə Azərbaycan prezidentinin səlahiyyətlərinin icraçısı və Ali Sovetin sədri olub, uzun illər Müsavat Partiyasına rəhbərlik edib.

1992-93-cü illərdə Azərbaycanın xarici işlər naziri olmuş Tofiq Qasımov isə İsveçrədə yaşayır. Məlumata görə, T.Qasımov orada elmi fəaliyyətlə məşğuldur və fizika üzrə fəlsəfə doktorudur.

Keçmiş dövlət katibi, Azərbaycan Liberal Partiyasının (ALP) lideri Lalə Şövkət Hacıyeva da uzun müddətdir ki, kölgəyə çəkilib, ictimaiyyətdə görünmür. Lalə Şövkətin yaxın silahdaşı, ALP sədri Əvəz Temirxan bugünlərdə mətbuata açıqlamasında bildirib ki, Lalə Şövkətin siyasi taktikası mətbuatsız işləməkdir və hazırda onun böyük planı var: "Mətbuata böyük hörməti olsa da, o, media ilə işləmir. Lalə Şövkət başda olmaqla, Liberal Partiyada tarixdə görünməmiş böyük bir siyasi barışıq planı hazırlanıb. Bunun həyata keçməsi üçün ilk növbədə iqtidarın xoş məramı lazımdır. Bu isə çox təəssüf olsun ki, Azərbaycanda yoxdur. Həqiqətən də Lalə Şövkət bütün Azərbaycanı barışdırmaq, birləşdirmək barədə böyük plan hazırlayıb. Lakin iqtidarın içərisində bəzi qüvvələr var ki, bu planın baş tutmasını istəmir".

1992-2005-ci illərdə Azərbaycan Milli İstiqlal Partiyasının sədri olan Etibar Məmmədov da hazırda aktiv siyasətlə məşğul olmur. Mətbuatda yer alan məlumatlara görə, hazırda o, biznes fəaliyyəti ilə məşğuldur. Bir müddət bundan əvvəl həyatı yoldaşını itirən, Azərbaycanın ilk prezidenti Ayaz Mütəllimov isə hazırda Bakıda, övladlarının və nəvələrinin əhatəsində yaşayır.

Milli Məclisin sabiq sədri Rəsul Quliyev isə Amerikadadır...

❑ **Xalidə GƏRAY**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 192 (7362) 18 sentyabr 2019



# Ötən əsrin ən böyük dühası - bu gün Üzeyir Hacıbəylini yad edək!

**Bu gün Azərbaycanda Üzeyir Hacıbəylinin doğum günü və Milli Musiqi Günüdür. Qeyd edək ki, mərhum prezident Heydər Əliyevin sərəncamı ilə hər il 18 sentyabr Milli Musiqi Günü kimi qeyd olunmağa başlanıb. Xatırladaq ki, dahi bəstəkar Üzeyir Hacıbəyov 18 sentyabr 1885-ci ildə anadan olub. O, təkcə bəstəkar kimi deyil, həm də musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi, Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan SSR-nin himnlərinin müəllifi kimi tarixə düşüb. Bütün ömrü boyu Azərbaycan mədəniyyətinə, musiqisinə xidmət edən Üzeyir bəy 300-dən çox xalq mahnısını nota salıb, müxtəlif üslubda klassik əsərlər yazıb. Onun əsərləri dünya musiqi incilərindən hesab edilir.**

Qeyd edildiyi kimi, Üzeyir bəy həm də görkəmli publisist kimi tarixi şəxsiyyətdir. O, "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında "Ordan-burdan", "O yan-bu yan" və s. başlıqlar altında "Ü", "Filankəs", "Behmankəs" və s. gizli imzalarla dövrün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirib. Bədii və publisist tarazlığı saxlamaq etibarilə Ü.Hacıbəylinin felyetonları, oçerk və parodiyaları böyük dəyəri olan əsl sənət əsərləridir. Müəllif əsərlərində əsasən Bakı şəhər Dumasının fərsiz deputatlarını rüsvay edir, tutduqları siyasi mövqeyə layiq olmadıqlarını nümayişkaranə açıqlıqla onların uzlərinə vurur, fəaliyyətsiz Iqlasnıları» barsız ağaclara bənzədir. Azərbaycan Xalq Cümhuriyyəti illərində cümhuriyyətin qurucuları barəsində çoxu sayda yazılar dərc edən Üzeyir bəy sonradan sovet rejimi tərəfindən dəfələrlə hədəflərə tuş gəlib. Xüsusən də ona bu münasibətin yaranmasında qardaşı C.Hacıbəylinin Avropada sovet dövləti əleyhinə çalışmalarının da böyük təsiri vardı. Ü.Hacıbəyli isə cidd-cəhd göstərməsinə baxmayaraq qardaşının Azərbaycana qayıtmasına nail ola bilmədi.

Belə bir iddia da var ki, zamanında 1920-ci ildə onu güllələmək istəyiblər. Bu təhlükə sırf təsadüf nəticəsində sovuşur. Üzeyir Hacıbəylinin qaynı Hənəfi Terequlov əqidəcə qatı kommunist idi. (Onu da xatırladaq ki, dahi bəstəkar Üzeyir Hacıbəyli və Müslüm Maqomayev eyni ildə, eyni gündə anadan olub. Həmçinin bəstəkarlar Terequlova bacıları ilə evlənməklə bacanaq olublar). O, təhlükəsizlik idarəsi şöbə müdirlərinin birinin masasının üstündə təsadüfən haqqında güllələnmə hökmü çıxarılan 59 nəfərin siyahısında Üzeyir Hacıbəylinin da adını görür. Başılovlu Nəriman Nərimanovun yanına gedərək, vəziyyəti danışır. Nəriman Nərimanov müvafiq orqanlardan həmin siyahını tələb edir. Onları tələm-tələsik qərar çıxarmaqda günahlandıran Nərimanov bu siyahını cırıb atır. Nəriman Nərimanov bəstəkara bir müddət Bakıdan uzaqlaşmağı məsləhət görür.







**Aqil Abbas:** "Mənim üçün Üzeyir Hacıbəyli budur: Üzeyir Hacıbəyli adına Azərbaycan!"
**Elçin Mirzəbəyli:** "O, xalqımızı Şərqin qarmaqarışıq dolanbaclarından çıxararaq işığa doğru aparıb"
**Mənsum İbrahimov:** "Bütün yaradıcılığım Üzeyir bəylə bağlıdır"

Bəs müasir tanınmış ictimaiyyət nümayəndələri üçün Üzeyir Hacıbəyli kimdir?

Bu sualla bir neçə tanınmışa müraciət etdik.

**Deputat, AYB-nin üzvü Aqil Abbas sualımıza bu cür cavab verdi:** "Mən Üzeyir Hacıbəylinin doğulduğu Ağcabədiyə gedirəm. Orada onun muzeyi, adına muğam məktəbi var. Gedirəm onu yad etməyə.

Üzeyir Hacıbəyli mənim üçün kimdir? Xatırlayırsınızsa, bir dəfə konservatoriyanın üzərindən Üzeyir bəyin adını götürmüşdülər. Bu barədə televiziyada mənə sual verdilər ki, niyə ziyalı kimi reaksiya göstərmədiniz? Dedim ki, Üzeyir Hacıbəyli o qədər böyük nəhəngdir ki, onun adını konservatoriyaya yazmaqla heç nə olmur. Mənim üçün Üzeyir Hacıbəyli budur: Üzeyir Hacıbəyli adına Azərbaycan! Beləliklə, Üzeyir bəy bütün Azərbaycan deməkdir. O, təkcə bəstəkar deyildi, o, həm də müəllim, mütəfəkkir idi. Tarixdən də məlumdur ki, Üzeyir bəy əsasən ötən əsrin lap əvvəllərində, 1920-ci ilə qədər yazıb-yaradıb. Sovet hakimiyyəti qurulduqdan sonra isə o artıq yazmadı, özünü yalnız konservatoriyanın qurulmasına, musiqiyə, maarifçiliyə həsr etdi. Lakin sonra ürəyi dözmədi, 1937-ci ildə "Koroğlu" operasını yazdı. Çünki ürəyi sovet dövrünü istəmirdi. Ümumiyyətlə, 20-ci əsrin əvvəlində Azərbaycan xalqının yetişdirdiyi dühalar dahidən də böyükdür. Təsəvvür edin, insan dəhşətə gəlir: Üzeyir Hacıbəyli, Cəfər Cabbarlı, Hüseyn Cavid, Əli bəy Hüseynzadə, Mirzə Cəlil, Mirzə Ələkbər Sabir kimi dahilər məhz o zamanda yetişmişdi.

Biz xalq olaraq, ibtidai sinifdə qalmışıq, 5-ci sinfə keçə bilməmişik. Saydığım dahilər bu xalqı 5-ci sinfə keçirmək istədi, amma gücləri çatmadı".

**Tanınmış politoloq, jurnalist və şair Elçin Mirzəbəyli isə bu cür cavab verdi:** "Musiqi Günümüz Müslüm Maqomayevlə də bağlıdır. Bildiyiniz kimi, hər iki şəxsiyyət eyni gündə anadan olub. Hər iki şəxsin Azərbaycan musiqisində, ictimai mühitində mühüm rolu var, hər ikisi böyük mütəfəkkirdir. Üzeyir bəy təkcə Azərbaycan xalqı üçün deyil, bəşəriyyət, türk dünyası, Şərq üçün ən böyük mütəfəkkirdir. Onun ən böyük xidmətləri Avropa düşüncəli insan kimi formalaşmağımızda olan xidmətləridir. Musiqimizi, muğamımızı məhz o lada Üzeyir Hacıbəyli köçürüb. Şərqin qarmaqarışıq dolanbaclarından çıxararaq işığa doğru aparıb.

Beləliklə, onu təkcə musiqiçi kimi dəyərləndirmək doğru olmazdı. O, böyük tarixi şəxsiyyətdir. Bir azərbaycanlı kimi onun ruhu qarşısında baş əyməyi özümə borc hesab edirəm".

**Xalq artisti, xanəndə Mənsum İbrahimov isə qeyd etdi ki, bütün yaradıcılığı Üzeyir Hacıbəyli ilə bağlıdır:** "Üzeyir bəy Azərbaycanın peşəkar musiqisinin banisidir. Ümumiyyətlə, müasir musiqimizin bu səviyyəyə gəlib çatmasında onun mühüm rolu var. Şərqdə ilk operanın, orkestrin təməlini qoyan şəxsiyyətdir. Hətta bizim hazırda keçdiyimiz muğam tədrisi proqramını Üzeyir bəy tərtib edib. O, muğamlarımızı çox dərindən bilirdi. Ona görə də 22 yaşında dünyada misli bərabəri olmayan muğam operasını yazıb. Mənim bütün yaradıcılığım Üzeyir bəylə bağlıdır. Çünki geniş tamaşaçı kütləsi məni onun "Leyli və Məcnun" operasından tanıyır. Tamaşaçılar məni daha çox Məcnun obrazı ilə tanıyır və bütün uğurlarım bu obrazla bağlıdır. Buna görə də hər zaman özümü onun ruhuna borclu hesab edirəm. Ümumiyyətlə, biz musiqiçilər onun mənəvi övladlarıyıq".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

## Universitet dekanı işdən çıxarıldı

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "qalmaqallı dekanı" kimi xarakterizə olunan Mübariz Məmmədli işdən çıxarılıb.**

Məlumatı modern.az-a Mədəniyyət və İncəsənət Universitetindən təsdiqləyiblər.

Mübariz Məmmədli universitetin "Televiziya və Kino rejisorluğu" fakültəsinin dekanı vəzifəsində çalışırdı.

Qeyd edək ki, Mübariz Məmmədov 2016-cı ilə qədər Bakı Slavyan Universitetinin Dünya ədəbiyyatı kafedrasında dosent kimi fəaliyyət göstərib.

## "Ekologiya postu"na yeni rəis təyin edildi

**Azərbaycanın daxili işlər orqanlarında yeni təyinat olub.**

"Report"un məlumatına görə, idarənin Ekoloji Nəzarət Bölüyünün komandiri vəzifəsinə polis mayoru Mərdan Mehdiyev təyin edilib. O, daha əvvəl idarənin 3-cü tağım komandiri vəzifəsində çalışıb.

Qeyd edək ki, daxili işlər naziri Vilayət Eyvazovun müvafiq əmrinə əsasən, idarənin Ekoloji Nəzarət Bölüyünün komandiri, polkovnik-leytenant Fuad Mayılov tutduğu vəzifədən azad edilib.

V.Eyvazovun digər əmrinə əsasən, o, Sumqayıt Regional Qeydiyyat-İmtahan və texniki baxış şöbəsinin rəisi vəzifəsinə təyin olunub.

## "Bu, dinimiz tərəfindən qəbul olunmayan haldır"- komitə sədri

**"Azərbaycanda Aşura mərasimi çox sakit şəraitdə keçdi, demək olar ki, hər hansı bir qanun pozuntusuna yol verilmədi".**

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. M.Qurbanlı bildirib ki, mərasimdə iştirak edən hər kəs öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib: "Hər kəs sərbəst şəkildə həmin dini mərasimlərdə iştirak etmək imkanı əldə etdi. Biz də Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə qanvermə aksiyasında iştirak etdik. Minlərlə Azərbaycan vətəndaşı qanvermə aksiyasında iştirak etməklə bu prosesdə həmrəylik nümayiş etdirdi".

**M.Qurbanlı bəzi yerlərdə zəncirvurma hallarının baş verməsi ilə bağlı məlumatlara da münasibət bildirib:** "Zəncirvurma hadisələri Aşura mərasimi keçirilən ölkələrdə özünü büruzə verir. Bu, dinimiz tərəfindən də qəbul olunmayan bir haldır. Ancaq çox təəssüf ki, bəzi ölkələrdə biz bunu görməkdəyik. Azərbaycanda 15 il və ya ondan da əvvələ nəzər salsaq, belə halların çox olduğunu görərik. Aparılan təbliğat nəticəsində hazırda Azərbaycanda zəncirvurmaya çox nadir hallarda təsadüf edilir. O hallların da qarşısı imamların müdaxiləsi ilə dərhal alınıb. Hesab edirik ki, gələcəkdə bu cür hallar tam aradan qalxacaq".

YENİ MÜSAVAT
N 192 (7362) 18 sentyabr 2019

# İsa Qəmbər Müsavat başqanlığına qayıdır - iddia və gözləntilər

## Qurultay ərəfəsində partiyada liderlik mübarizəsi qızışıb; **Hikmət Hacızadə:** “İsa Qəmbərin qayıtması Putinlə Medvedyevin bir-birini əvəz etməsinə bənzəyər...”

**Müsavat Partiyası növbəti, 9-cu qurultayını oktyabrın 12-də keçirmək barədə qərar verib. Partiyanın hazırkı başqanı Arif Hacılı “Amerikanın səsi”nə açıqlamasında budəfəki qurultayın hesabat-seçki qurultayı olacağını bildirib. Ali toplantıda partiya başqanının, Mərkəzi Nəzarət-Təftiş Komissiyasının hesabatları dinləniləcək. Təşkilati məsələlərə baxılacaq, partiyanın başqanı, Mərkəzi Nəzarət-Təftiş Komissiyasının üzvləri və Məclisin sərbəst üzvləri seçiləcək. Eyni zamanda proqram və nizamnaməyə müəyyən dəyişiklik və əlavələrin edilməsi nəzərdə tutulur.**

“Partiya başqanlığına namizədlər ötən qurultayda ilkin seçki yolu ilə müəyyən edilib, bəs indi necə müəyyənləşdiriləcək” sualının cavabında A.Hacılı deyib ki, namizədlərin müəyyənləşməsi üçün hər hansı prosedur yoxdur, istənilən partiya üzvü başqanlığa namizədliyini irəli sürə bilər. Öz namizədliyi ilə bağlı sualın cavabında Hacılı deyib ki, nizamnaməyə görə, onun daha bir müddət başqan olmaq hüququ var: “Namizədlərin irəli sürülməsi elan edildikdən sonra mən öz qərarımı açıqlayacağam”.

Müsavat başqanlığına isə artıq iki nəfər namizədliyini elan edib. Bunlar Müsavat Divanının üzvləri Tofiq Yaqublu və Yadigar Sadıqlıdır.

**Yadigar Sadıqlı bildirib ki, partiyanın son 5 ildə idarə olunmasını qənaətbəxş hesab etmir və bunu Müsavatın reytinqinin zəifləməsində də müşahidə etmək olar.** “Hesab edirəm ki, mənim başqan seçilməyim təkcə Müsavatda deyil, ümumilikdə demokratik düşərgədə ab-havanı kökündən dəyişər, yeni qüvvələrin axınına xidmət edər”, - deyə o bildirib.



**Tofiq Yaqublu isə bildirib ki, hər bir partiya üzvünün seçkili qurumlara namizədliyini irəli sürməyə haqqı var və burada kiminsə başqanlığa namizəd olması qeyri-adi bir məsələ deyil:** “Əgər başqan seçilərəmsə, Müsavatın ümumi xətti davam etdiriləcək. Təbii ki, nizamnamə çərçivəsində bu və ya digər korrektələr ola bilər. Düzü, indidən nə edəcəyimi açıqlamaq istəmirəm. İstənilən halda hər bir fərd yeni bir nəfəs, yeni prinsip deməkdir. Başqa şəxslərin namizəd olması normaldır. Yadigar Sadıqlı namizədliyini irəli sürüb. Başqaları da ortaya çıxa bilər. Hörmətli Arif Hacılı ilə yüzdə-yüz eyni düşünsəydim, heç namizəd olmazdım. Amma nəyi, necə düzəltmək istəyirəm, bax, onu qurultayda bəyan edəcəyəm”.

Xatırladaq ki, Müsavat Partiyasının 8-ci qurultayı 2014-cü il 27 sentyabrda keçirilib. Həmin qurultay Müsavatın 1992-ci ildən sonra keçirilən ən gərgin və kəskin mübarizə şəraitində keçən və İsa Qəmbərin 22 illik başqanlıqdan getməsini rəsmiləşdirən qurultay olub. Qurultayda Müsavat Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı başqan seçilib. Onun namizədliyini səsvermədə iştirak edən 450 qurultay iştirakçısından 228-i dəstəkləyib. Namizədlərdən səslərin sayına görə ikinci yerdə Müsavat Divanının üzvü Qubad İbadoğlu gəlib - 200 səs. Müsavat Divanının üzvü Tural Abbaslı isə 19 səslə üçüncü yerdə qərarlaşıb.

Partiya başqanı vəzifəsi uğrunda rəqabətə 4 namizəd qatılsa da, səsvermədən öncə qurultay iştirakçıları qarşısında çıxış edən Səxavət Əlisoy namizədliyini Qubad İbadoğlunun xeyrinə geri çəkib.

22 il Müsavata başqanlıq edən İsa Qəmbər isə nizamnamənin “Bir şəxsin iki dəfədən artıq partiya başqanı olması yolverilməzdir” qadağasına əməl edərək namizədliyini irəli sürməmişdi. Müsavat üzvlərinin bir çoxu partiyanın bütövlüyü naminə nizamnamədəki qadağanın ləğv olunmasını və İsa Qəmbərin namizədliyinin irəli sürülməsinə çağırış etsələr də İsa Qəmbər mövqeyindən geri çəkilmədi.

8-ci qurultaydan sonra Müsavatdan qopmalar və azad edilmələr başladı. Partiyanın bir sıra tanınmış üzvləri partiyadan istefa verdilər, bəziləri isə Müsavat Divanı tərəfindən xaric edildilər. Növbəti qurultayda və qurultaydan sonra da buna bənzər hadisələrin yaşanmamağı üçün ən optimal çıxış yolu kimi İsa Qəmbərin başqanlığa qayıtması göstərilir. Əks halda, yenə də seçkini uduzan tərəflərdən ikisinin Müsavatdan gedəcəyi ehtimalının yüksək olduğu deyilir. İsa Qəmbərin yenidən başqanlığa qayıtmasına isə hazırda hüquqi əngəlin olmadığı bildirilir.

**Müsavat Divanının sabiq üzvü Hikmət Hacızadə isə “Yeni Müsavat”a bildirdi ki, İsa Qəmbər başqan qayıtsa belə, avtomatik olaraq Müsavatın əvvəlki gücü və nüfuzu qayıtmayacaq:** “Gərək hansısa ciddi addımlar atılsın ki, partiya yavaş-yavaş əvvəlki nüfuzunu, gücünü bərpa edə bilsin. Bu məsələ ”sehrli çubuq"la həll edilən məsələ deyil. Partiyanın bir hissəsi gedib. Düz gedib, səhv gedib, bu, başqa məsələdir. Ancaq siyasətçinin, idarəçinin, müdirin borcudur ki, bu cür problemləri necəsə həll eləsin. Siyasət idarəetmə deməkdir. İsa Qəmbər ya gərək zamanında bu və ya digər yollarla imkan verməyəydi məlum proseslərin baş verməsinə, ya da indi gərək hansısa ciddi addımlar atmalıdır ki, gedənlər geri dönsün, partiyanın gücü bərpa olsun. Partiyanın yarısını geri qaytarmaq lazım gələcək. Bunun üçün də xeyli işləmək lazım olacaq. Mən demirəm ki, İsa Qəmbər bunu bacarmaz. Deyirəm ki, o, bunu eləməlidir ki, partiyanın nüfuzu yenidən qayıtsın. Seçilmək naminə seçilməklə isə heç nə dəyişməz. Digər tərəfdən isə mən İsa Qəmbərin yenidən başqan qayıtmasını təqdirəlayiq saymaram. Çünki belə bir addımın atılması Putinlə Medvedyevin bir-birini əvəz etməsinə bənzəyər".

**H.Hacızadə vurğuladı ki, seçkilər düzgün keçirilsə, İsa Qəmbərin namizədliyinin olub-olmamasından asılı olmayaraq qopmalar baş verməməlidir:** “İkincisi, narazı adamları da razı salmaq lazımdır! Biz həmimiz-hərəkatda olan adamlar əsəbi adamlarıq, biz elə-belə adamlar deyilik. Biz 30 ildir təzyiq altındayıq, əsəb sistemimiz başqadır. Bizim ağlımıza başqa-başqa axmaq şeylər gəlir. Onu idarə eləmək lazımdır. Əgər yenidən partiyada narazılıq olsa, onda gərək indiki rəhbərlik bacarsın ki, ehtimalən küsən adamlar getməsin. Mənim dediyim odur ki, rəhbər parçalanmağa qoymamaq məharəti nümayiş etdirməlidir”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Azərbaycanda xeyriyyəçi milyarderlər niyə çox deyil?

## **Ekspert:** “O ölkələrdə xeyriyyəçilik daha geniş yayılır ki...”

**Zaman-zaman dünyanın tanınmış milyarderləri ilə bağlı siyahı açıqlanır. Amma bu siyahıdakı milyarderlərin ən böyük özəlliyi onların həm də xeyriyyəçi fəaliyyətləri ilə bağlıdır. Bu kontekstdən çıxış edib, azərbaycanlı milyarderlərin xeyriyyəçilik fəaliyyəti ilə maraqlandıq.**

### “Forbes”in siyahısındakı azərbaycanlılar...

“Forbes” jurnalının son açıqlamasına görə, Rusiyanın 200 milyarderinin də yer aldığı siyahıda bir neçə azərbaycanlının da adı var. “LUKoil” şirkətinin rəhbəri, tanınmış azərbaycanlı iş adamı Vahid Ələkbərov 16,4 milyard dollarlıq sərvəti ilə bu siyahıda 4-cü yerdə qərarlaşıb. Digər azərbaycanlı biznes adamı, “Crocus Group”un rəhbəri Araz Ağalarov 1,8 milyard dollar dəyərində qiymətləndirilən sərvəti ilə 50-ci yerdə qərarlaşıb. Bu siyahıdakı son azərbaycanlı isə 1,4 milyard dollarlıq sərvəti ilə 69-cu yeri tutan Fərhad Əhmədovdur.



### Fərhad Əhmədov və Qod Nisanov...

“AzNar” QSC-nin sahibi, xeyriyyəçi Fərhad Əhmədov ötən il şəxsi vəsaiti ilə Göyçayın Potu kənd tam orta məktəbinin binasında əsaslı təmir və yenidənqurma işləri həyata keçirib. “AzNar” QSC-nin rəhbəri tərəfindən məktəbli çantaları və dərs ləvazimatları hədiyyə olunub.

Diqqətə çatdırılıb ki, xeyriyyəçi Fərhad Əhmədov hər il öz ad günündə rayonda bir orta məktəbi əsaslı təmir etməyi qərara alıb. Ötən il onun maddi köməkliyi ilə Göyçay şəhər 2 saylı orta məktəb əsaslı təmir edilib, bu il isə şəhər 7 saylı orta məktəbin əsaslı təmir edilməsi nəzərdə tutulub. Dağ yəhudilərinin yaşadığı Quba rayonunun “Qırmızı qəsəbə”sində doğulan Zarax İliyev və Qod Nisanov zaman-zaman həmin qəsəbənin imkansız ailələrinə aylıq olaraq yardım edirlər və o ərazinin abadlaşdırılmasına pul ayırırlar.

Bəs görəsən, milyarder həmvətənlərimizin əksərində niyə xeyriyyəçilik hissi yoxdur?

### Rəşad Həsənov: “Bizim kimi ölkələrdə fərdi maraqlar önə keçir”

Bəs azərbaycanlı milyarderlərin xeyriyyəçilik fəaliyyəti ilə bağlı məlumatlar niyə geniş yayılmır? “Sağ əlin verdiyindən sol əlin xəbəri olmamalıdır” prinsipi ilə, yoxsa...?

Bir çox iqtisadçılar hesab edirlər ki, Azərbaycanda əksər milyonçular əldə etdikləri sərvəti heç də qanuni yollarla qazanmayıblar. Buna görə də onlar rəsmən qeydiyyata alınmırlar. Belə ki, onlar milyonçuya qanunsuz yollarla çevriliblər. Belə vəziyyətdə milyonçuların adının leqallaşdırılması cəmiyyətdə çox böyük qarşıdurmalar və qeyri-sabitliyə rəvac verər. Milyonçuların rəsmi siyahısı o ölkələrdə cəmiyyət üçün leqal olur ki, həmin ölkələrdə sərvət və mülkiyyət leqal yollarla qazanılır. İkinci səbəb odur ki, milyonçular leqallaşsa, gərək öz statuslarına və rəsmi bəyan edilən sərvətlərinə uyğun vergi ödəsinlər. Amma bu qruplar ən çox vergidən yayınanlar sayılırlar.

**İqtisadçı Rəşad Həsənov “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, burada ən müxtəlif faktorlar nəticəyə təsir göstərir. Onun fikrincə, xeyriyyəçilik ictimai maraqlar fonunda bir institutdur:** “O ölkələrdə xeyriyyəçilik daha geniş yayılır ki, o ölkələrdə ictimai maraqların müdafiəsi, qorunması daha geniş yayılıb. Amma bizim kimi ölkələrdə fərdi maraqlar daha önə keçir. İctimai maraqlar hər zaman geridə qalır. Bu da özlüyündə xeyriyyəçilik institutunun formalaşmasına neqativ təsir göstərir. Eyni zamanda burada digər faktor kimi maarifləndirmə və dini qurumların fəaliyyəti də mühüm rol oynayır. Avropa ölkələrində ilk xeyriyyəçilər və öncüllər dini təşkilatlardır. Bu dini təşkilatların gördüyü işlər əhalinin digər sosial qruplarında, o cümlədən milyarder, imkanlı şəxslərdə xeyriyyəçilik istiqamətində qənaətin formalaşdırılmasına gətirib çıxarır. Bu, cəmiyyətdə bir dəyərə çevrilir. Amma təəssüflər olsun ki, bizim kimi ölkələrdə dini qurumların bu kimi təşəbbüslərdə iştirakı çox zəifdir. Bəzi hallarda heç rastlanmır. Bu, dəyər olaraq Azərbaycan cəmiyyətində özünə hələ də yer tapmamış institutlardan biri hesab olunur. Ona görə də düşünürəm ki, Azərbaycanda xeyriyyəçilik hələ də geniş yayılmayıb. Demək olmaz ki, yoxdur”.

**Müsahibimiz bu məsələdə inkişaf etmiş ölkələrin təcrübəsini də yada saldı. Dedi ki, nəinki ayrı-ayrı şəxslər, eyni zamanda biznes subyektləri, müəssisələr ölkənin resurslarından, insan ehtiyatından yararlanaraq gəlir əldə edilməsi fonunda korporativ sosial məsuliyyət deyilən bir öhdəliyi öz öhdəlikləri sırasına daxil ediblər:** “İctimai maraqların qorunması, təbiətin mühafizə olunması, digər sosial maraqların müdafiə olunmasında iştirak edirlər. Bu, hələlik bizdə özünü əks etdirmir. Bir başqa məqam da qarşılıqlı inam məsələsidir. Bir sıra hallarda bu vəsaitlərin xərclənməsi ilə bağlı xeyriyyə təşkilatları ilə xeyriyyəçilər arasında anlaşılmazlıqlar yaşanır. Şəffaflığın olmaması bu istiqamətdə, xeyriyyəçiləri bu istiqamətdə fəaliyyətdən çəkindirən amil ola bilər”.

❑ **Sevinc TELMANQIZI,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 192 (7362) 18 sentyabr 2019

# Əməkdaşlarımız Vidadi Zeynalovun məşhur restoranını tapdı - özü nələr dedi?

## "Rabitə işi" üzrə tutulan və həbsdən yeni çıxmış sabiq aparat rəhbəri Çuxuryurd kəndində istirahət mərkəzi işlədir; "Yeni Müsavat"a nələr danışdı?

**... Şamaxının Məlhəm kəndində onu tanımayan yoxdur. Kimdən soraq alırsan ki, "Rabitə Nazirliyinin (qısa adı belədir-müəlliflər) sabiq aparat rəhbəri Vidadi Zeynalovun yeri haradadır", dərhal əlini uzadaraq ünvanı göstərir.**

Bu kənd Şamaxının mərkəzindən çox da uzaq deyil. Cəmi 10 kilometr yol qət edərək Məlhəmə çatırsan.

Məlhəm Azərbaycanın ən qədim kəndlərindən biridir. Məlhəm kəndi əsasən Azərbaycanda elm ocağı kimi tanınır. Burada saysız alimlər, şairlər və elm adamları dünyaya gəlib.

Burada mədrəsələr, məscidlər və elm ocaqları çoxdur.

Yeri gəlmişkən, kənd Azərbaycanda tanınmış bir yerdir. Məşhur "Bəyin oğurlanması" filmində toy səhnələri Məlhəmdə çəkilib. Amma bizi bura gətirən səbəb nə kinodur, nə də toy...

Səbəbi neçə gündür ki, saytlarda dolaşan xəbər başlıqlarıdır.

KİV yazır ki, Vidadi Zeynalov Məlhəmdə eyniadlı restoran açıb.

**Özü də unikal.org-a bildirib ki, restoran işlədir:** "Həyat yoldaşım restoranda aşpazların başında durur, mən isə ümumi nəzarətçi işləyirəm. Restoranın həyətində toyuq-cücə də saxlayıram. Acından ölən deyiləm ki?! Taxıl da əkirəm".

Sonra başqa bir saytda açıqlamanı təkzib eləmişdi, "Məlhəm" restoranının administratoru isə obyektin məşhur restoranların sahibi olan Tahir Nadirliyə məxsus olduğunu açıqlamışdı. Elə bu dolaşıq məlumatları, açıqlamaları yerindəcə araşdırmaq niyyəti ilə Məlhəm kəndinə yol aldıq. Və bütün qarmaqarışıqlığa işıq saldıq...

***

"Bax, qadoyu alım, buradan dümbələmdüz qalxırsınız, heç yerə dönmürsünüz. Yolun solunda "Məlhəm" restoranı görəcəksiniz, ora girməyin ha, başqasınındır. Hansısa iş adamına aiddir.

Ona görə qarışdırmayın, həmin restorandan 300-400 metr sonra yenə sol tərəfdə qabağınıza bir lövhə çıxacaq. Çoxu restoranları səhv salır, həmin ikinciyə də "Məlhəm" istirahət mərkəzi deyirlər. Amma lövhədə görəcəksiniz "Rose Park" yazılıb, ox işarəsinə baxarsınız, yol düz sizi Vidadi müəllimin yerinə aparıb çıxaracaq", - deyə Məlhəm kəndinin girişində sakinlərdən biri bizə ünvanı nişan verir.

Onun sözlərinə görə, həmin istirahət mərkəzi Vidadi Zeynalova məxsusdur, evi də elə yaxınlıqdadır. Amma istirahət məkanı Məlhəm ərazisində deyil, qonşu Çuxuryurd kəndində yerləşir.













Öyrənirik ki, bir neçə ay əvvəl azadlığa buraxılan Vidadi Zeynalov çox vaxtı kənddə olur, gününü orada keçirir.

Bu minvalla göstərilən ünvana çatana qədər bir neçə kənd sakinindən də Vidadi Zeynalovun obyektini soraqlayırıq, hamısı eyni yeri göstərdi. Aydın oldu ki, onu Məlhəmdə də, Çuxuryurdda da tanımayan yoxdur.

Kənd camaatının dediyi kimi, "Rose Park" lövhəsi yazılan yerdən üzüaşağı gedirik, dar bir cığırla irəliləyirik və yolun sağı da, solu da hektarlarla əkin sahələridir.

Nəhayət, qarşımıza yaraşıqlı, təmiz havası olan istirahət mərkəzi çıxır, həyətinə daxil oluruq: burada simvolik olaraq saxlanan fayton, retro maşınlar görürük, kottejlər, dağlara panoraması açılan restoran zalının şahidi oluruq.

Amma istirahət mərkəzində işçilərdən başqa ins-cins yoxuydu. Hiss olunurdu ki, obyekt müştəri qıtlığından əziyyət çəkir. Burada çay sifariş verib qiymətlərlə maraqlanırıq.

"Rose Park"da kottejlərdə qalmağın bir gecəlik qiyməti 80 manatdır. Bu pula səhər yeməyi, tennis, uşaqlar üçün əyləncə yeri daxildir. Hovuzdan istifadəyə isə endirim olacağı deyildi.

İstirahət mərkəzindən Şamaxı rəsədxanası, Pirqulu, yanbayan göllər ovuc içindəki kimi görünürdü. Belə səfalı guşədə yerləşən istirahət mərkəzinin restoranında qiymətlər təəccüblü olsa da, münasib idi. İstər kabablar, içkilər, istər başqa yeməklər və s.

İstirahət mərkəzində olarkən Vidadi Zeynalovun burada olub-olmadığını soruşuruq, Şamaxıda olmadığı, axşam qayıdacağı deyilir. Buna görə də özü ilə telefon əlaqəsi saxlayırıq.

**Vidadi Zeynalov "Yeni Müsavat"a bildirdi ki, hazırda Neftçalada tələbə yoldaşının yas mərasimindədir. Onun sözlərinə görə, həmin istirahət mərkəzini icarəyə götürüb:** "Amma orada elə bil ki, milçək qovurlar, bir adam gəlmir. Yeri yaxşıdır, amma gələn yoxdur. Biləndə ki, filankəsin yeridir, qorxub gəlmirlər".

**Vidadi Zeynalov həbsi, sabiq rabitə naziri Əli Abbasov və başqalarının məsuliyyətdən kənarda qalması ilə bağlı sualımıza belə cavab verdi:** "Qardaş, mən qara dəftəri bağlamışam. Evdə həmişə deyirlər ki, 40 il işlədiyin yerdən danışmırsan, iki il olduğun türmədən hər gün danışırsan. Deyirəm ki, çətin gün həmişə yadda qalır. İndi qanun, məhkəmə belə qərar verdi ki, günahkar mənəm".

O, hamıya cansağlığı arzulayaraq, yas yerində olduğunu xatırladıb əlavə nəsə danışmaq imkanı olmadığını qeyd etdi.

Bildirək ki, Vidadi Zeynalov jurnalist Fikrət Fərəməzoğlunun həbsxana xatirələrində onunla bağlı yazılanlara toxunmuşdu. Jurnalist xatirələrində yazıb ki, 1 saylı Bakı İstintaq Təcridxanasında nəzarətçilər V.Zeynalovun maliyyə imkanlarından bol-bol yararlanıblar.

Məsələn, onlar keçmiş məmura iki dönəri 100 manata "təşkil" ediblər. Təcridxananın həyətini yaşıllaşdırmaq üçün Vidadi Zeynalov nə az, nə çox 12 min manatından keçib.

**Keçmiş məmurun yazılanlara münasibəti belə olmuşdu:** "Allah heç kimə həbsxanaya düşməyi qismət eləməsin. Ora elə bir yerdir ki, heç kəs heç kəsin dəmir barmaqlar arasında nə etdiyini nə görə, nə də bilə bilər. İndi yazıb da. Nə deyim".

Yada salaq ki, Vidadi Zeynalov "MTN işi"nə görə həbs edilən məmurlardandır. O, 2015-ci ilin noyabr ayının 13-də həbs edilib.

2017-ci il iyulun 27-də Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə barəsində 13 il müddətinə azadlıqdan məhrumetmə cəzası seçilən Vidadi Zeynalov 73 milyon 590 min manat məbləğində dövlət vəsaitinin mənimsənilməsi və israf edilməsinin təşkilində təqsirləndirilirdi. O, bu ilin mart ayında azadlığa buraxılıb.

❑ **"Yeni Müsavat"ın Reportyor Qrupu**
**Şamaxı. Məlhəm, Çuxuryurd**

# Bizi bu səbəbdən sayırlar - əhalinin siyahıyaalınması başlayır

## Ekspert: "Əgər normal iş aparılsa, bu yöndə dövlət proqramlarının həyata keçirilməsində ciddi irəliləyiş əldə etmək mümkün olar"

**Prezident İlham Əliyev 2016-cı il sentyabrın 7-də "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" fərman imzalayıb. Fərmana əsasən, Azərbaycanda əhalinin növbəti siyahıyaalınması bu ilin oktyabrın 1-10-da keçiriləcək. Əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənməsi, nəticələrinin dərc edilərək yayılması Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə həvalə edilib.**

**Dövlət Statistika Komitəsinin mətbuat katibi Elməddin Quliyev** bildirilib ki, oktyabrın 1-10-da keçiriləcək əhalinin növbəti siyahıyaalınması ilə bağlı hazırlıq işləri yekunlaşıb.

Bildirilib ki, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən hazırlanaraq Statistika Komitəsinə təqdim edilən inzibati ərazi vahidlərinin sxematik xəritələri və 3454 yaşayış məntəqəsinin sxematik planları yerli statistika orqanlarına göndərilib. Təşkilati planların tərtib edilməsi nəticəsində əhalinin siyahıyaalınmasının rayonlaşdırılması başa çatdırılıb. Ölkə ərazisi 720 siyahıyaalma, 6777 təlimatçı və 33 min 907 sayıcı məntəqəsinə bölünüb, bu prosesə cəlb olunacaq işçilərə olan tələbat müəyyən edilib: "Siyahıyaalma vərəqəsi ölkə üzrə ev təsərrüfatlarının və ailələrin sayına, yaşayış binaları və evlərinə, yaşayış üçün istifadə edilən digər tikililərə dair ətraflı məlumatların əldə olunmasına imkan verəcək. Sorğu vərəqəsində isə siyahıya alınacaq hər bir şəxsin cinsi, yaşı, doğulduğu yer, vətəndaşlığı, milli (etnik) mənsubiyyəti, ana dili və sərbəst danışdığı dillər, ailə vəziyyəti, siyahıyaalma anında olduğu yerdə daimi və ya müvəqqəti yaşaması, təhsil səviyyəsi, gəlir mənbələri, məşğulluq vəziyyəti, əhalinin ölkədaxili yerdəyişməsinin və xarici miqrasiyanın səbəbləri və digər mühüm göstəricilər üzrə suallar öz əksini tapıb. Siyahıyaalma vərəqəsində 6 sual, sorğu vərəqəsində isə alt suallar da daxil olmaqla, 46 sual nəzərdə tutulub".

E.Quliyev əlavə edib ki, məşğulluq sahəsində milli qanunvericiliyə və Beynəlxalq Əmək Təşkilatı tərəfindən qəbul edilmiş beynəlxalq metodologiyalara əsaslanaraq sorğu vərəqəsinə işçi qüvvəsinin, həmçinin potensial işçi qüvvəsini, əhalinin məşğulluğunu, o cümlədən özünüməşğulluğunu, işsizliyini, iqtisadi qeyri-fəallığını və öz şəxsi istehlakı üçün mal istehsalı ilə məşğul olanları müəyyən edən bir sıra suallar daxil edilib. Bu suallar əsasında iqtisadi və inzibati rayonlar üzrə peşə və vəzifələr, iqtisadi fəaliyyət növləri, cins və yaş bölgüsündə işçi qüvvəsinə dair əldə olunacaq məlumatlar ölkədə əmək ehtiyatlarının istifadəsinin əhatəli qiymətləndirilməsinə və əmək bazarında mövcud vəziyyəti daha geniş təhlil etməyə imkan verəcək.

Məlumat üçün bildirək ki, bu, müstəqil Azərbaycanda sayca 3-cü siyahıyaalmadır. Azərbaycanda əhalinin siyahıya alınması sonuncu dəfə 2009-cu ildə keçirilib.

Mütəxəssislər bildirirlər ki, dünyanın bir çox ölkələri üçün statistik tədqiqatların aparılmasına dair yeni müasir alternativ yanaşmaların olmasına baxmayaraq, demoqrafik və sosial göstəricilər üzrə əhalinin vəziyyəti haqqında məlumatların yeganə və dəqiq məlumat mənbəyi hər bir vətəndaşın sorğusuna əsaslanan siyahıyaalmadır. Əhalinin siyahıyaalmasının tam və hərtərəfli tərifi BMT-nin Statistika Komissiyası tərəfindən verilib. Bu tərifə əsasən, əhalinin siyahıyaalınması "zamanın müəyyən bir vəziyyətinə ölkədə olan bütün şəxslərə və ya ölkənin dəqiq müəyyən edilmiş hissələrinə aid olan demoqrafik, iqtisadi və sosial məlumatların toplaması, yekunlaşdırılması, qiymətləndirməsi, təhlili, nəşri və ya başqa şəkildə yayılmasının vahid prosesidir".



Dünya praktikasında hər bir ölkədə əhalinin sayı, sosial-demoqrafik strukturu haqqında əsas informasiya mənbəyi kimi həmin ölkədə aparılan siyahıyaalmanın məlumatları əsas götürülür.

**İqtisadçı Natiq Cəfərli "Yeni Müsavat"a bildirib ki, bu cür siyahıyaalma beynəlxalq təcrübəyə əsaslanır:** "Siyahıyaalmada dəqiqləşmə aparıldıqdan sonra əhalinin artım tempinin, ölkədən köçənlərin, etnik və sosial tərkibin, ali savadlıların dinamikasının öyrənilməsi həyata keçirilir. Bundan sonra dövlətin siyasətində müəyyən çatışmazlıqlar olursa, onlar üzərində dövlət proqramları qəbul olunur. Bu dediklərim dünya təcrübəsində edilənlərdir. Azərbaycanda bu, 10 ildən bir aparılır. Əgər doğrudan da normal siyahıyaalma aparılırsa, o zaman faydası var. Ancaq çox zaman Azərbaycanda bu, formal xarakter daşıyır və əldə olunan nəticələr reallığı əks etdirmir. Bu isə xərclənən vəsaitin kifayət qədər qeyri-effektiv yönlənməsinə səbəb olur. Düşünürəm ki, Azərbaycanda bununla bağlı iş aparılmalıdır ki, doğrudan da formallıq yox, normal siyahıyaalma işi həyata keçirilsin. Əgər normal iş aparılsa, bu yöndə dövlət proqramlarının həyata keçirilməsində ciddi irəliləyiş əldə etmək mümkün olar. Yəni əgər doğrudan da siyahıyaalma işi beynəlxalq təcrübəyə uyğun aparılarsa, rəqəmlər reallığı əks etdirərsə, o zaman bunun hər kəs üçün faydası olar".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

---

**Oxumuş adamların sözü olmasın, mübahisə predmeti musiqi olanda qarabağlı damarım yoğunlayır, özümü o cür mübahisələrə qoşulmaqdan saxlaya bilmirəm. Pis çıxmasın, özümə görə zövqüm də var və musiqi janrları üzrə sevgim muğamatla yekunlaşmır - cazdan saza, simfonik musiqidən ta qaraçı mahnılarına qədər hər şeyə qulaq asa bilirəm. Hətta son vaxtlar vəliəhdin sayəsində qəbul edirəm ki, rep də pis deyil.**

**Samir SARI**



# "Harya eydirsən, ayə"ni bəyənirdin axı, a bəy...

Hər halda, tam sükutdansa nəsə bir dınqıltı səsi gəlsin, bilək ki, həyat var, hərəkət var. Düşüncə budur.

Artıq indiki gənc nəslin Qədir Rüstəmovun "Sona bülbüllər"inə qulaq asmadıqlarını, qulaq assalar da, ləzzət almadıqlarını biirəm və kədərli halda düşünürəm ki, lənətə gəlmiş qloballaşma dünyanın ən ecazkar səsinin yiyəsini 5,5 motor cipin səsboğucusundan çıxan ğorultu (bu arada Ğ ilə başlayan söz icad etmişəm) səsi çıxaran səfilsifət gədələrə uduzdurdu.

Dünya dəyişir, zövqlər aşınır. Yəqin ki, İtaliyanın özündə belə artıq Al Banoya, Toto Kutunyoya qulaq asan çox azdır. Çünki "hər aşiqin dövranı" olduğu kimi, onların da dövranı vardı, ötdü, indi hamısı Xəstə Qasım kimi günü keçmiş qocadır. İndi oralarda gənclərə qulaq asırlar - səsləri olsa da, olmasa da, oxuya bilsələr də, bilməsələr də. Bu cür musiqilər - replər, roklar və sair şoklar, poklar yeni nəslin, yeni dövrün musiqisidir. Onlar bundan ləzzət alırlar. İndi Rəşid Behbudovu dağ yamacının bulağından süzülüb gələn su kimi duru səsinə çox da ehtiyac yoxdur.

Bununla belə, ciddi sənəti, əsl musiqini yaşadanlar var, yəqin ki, gələcəkdə də olacaqlar - populyar olmasalar da. Necə ki, müasir seriallar teatr sənətini arxa plana keçirib, amma tam öldürə bilməyib, mühəqqəq musiqi sahəsində də elə olacaq.

Gələk mətləb üstünə. Dünyanın ən sevimli azərbaycanlısının (bu fikrə etiraz edənlər ola bilər, amma bu faktdır) - Sami Yusufun böyük şairimiz Nəsiminin "Sığmazam" qəzəlinə hazırladığı kompozisiya müzakirə və mübahisə predmetidir.

Şəxsən o kompozisiya mənim xoşuma gəldi. Yüzə yaxın adamın iştirakıyla başa gələn musiqi parçasında bir əzəmət var, xor möhtəşəmdir, kompozisiyadan pozitivlik yağır, adama ruh verir. Sanki "Cəngi"dir, "Heyratı"dır.

Amma bu kompozisiyanı bəyənməyənlər də var. Çox iti musiqi zövqü olanları, hər gün dünyanın ən yaxşı bəstəkarlarının ən yaxşı kompozisiyalarını dinləyənləri anlayıram, onlar musiqi məsələsində bizdən bir level öndədirlər. Bəs gün axşamacan Damlaya, Mehdizadəyə (adını çəkmirəm, gündən ayıbdır) qulaq asanların, eləcə meyxanadan ləzzət alanların dərdi nədir?

Hə, bir məqam da budur ki, onlar "Sığmazam"ın son variantının ortaya çıxmasında əməyi, maliyyə dəstəyi olanlara müxalifdirlər deyə, tənqid səsləndirirlər. Əgər Sami Yusuf bu bəstəni müxalifət blokunun təşəbbüsü və dəstəyi ilə ortaya çıxarsaydı, onda bugünkü tənqidçilərin çoxu onu bəyənəcək, "möhtəşəm əsər" adlandıracaqdı. (Bu halda da hökumət əsəri yerdən-yerə vuracaq, tv-lərdə nümayiş etdirilməsini yasaqlayacaqdı).



Tənqidçilər arasında xətrini çox istədiyim, dost saydığım incə zövqlü adamlar da var və onların mövqeyini heç anlamıram. Onlar o adamlardır ki, iki il öncə Vüsal adlı bir oğlan "harya eydirsən, ayə" adlı bir şey ifa edərək, musiqi ictimaiyyətini şoka salanda, onlar onu bəyənir, sosial şəbəkədə müdafiə edir, statuslar, məqalələr yazırdılar və heç bir melodiyası, düz-əməlli sözü olmayan "o şeyi" novatorluq, yeni sənət nümunəsi adlandırırdılar.

"Harya eydirsən, ayə" hara, "Sığmazam" hara? Siz canınız, onları təkrar oxudun, müqayisə edin, qiymət verin.

Bəziləri də müdrik-müdrik deyir, Nəsimiyə layiq daha yaxşı kompozisiyalar bəstələmək, musiqinin ifası üçün daha sanballı sənətçilər dəvət etmək olardı.

Kim mane olur? Nəsiminin qəzəlləri orda, musiqiçilər, xor kapellası orda, otur, bəstələ, yazdır, yaydır. Biz də qulaq asaq, bəyənək. Təbii ki, bəyənməyənlər də olacaq, amma ta nə edək. Dünyada hamının bəyəndiyi bircə şey var, o da yüzlük dollar əsginasıdır.

YENİ MÜSAVAT
N 192 (7362) 18 sentyabr 2019

# Müxalifətin bitməyən "ana" qovğası

## Azərbaycanda ana müxalifəti niyə müəyyən etmək olmur?

**AXCP sədri Əli Kərimli və REAL Partiyasının sədri İlqar Məmmədov arasında internet televiziyalarının birində yaxınlarda debat keçiriləcəyi barədə məlumat yayılıb. Xəbərdə deyilir ki, debatda müzakirələr və ünvanlanacaq sualların nəticəsi olaraq ölkədə ana müxalifət partiyasının kim olduğu məsələsinə də aydınlıq gələcək.**



Qeyd edək ki, hazırda ölkədə dövlət qeydiyyatından keçmiş 55 siyasi partiya var. 55 partiyanın yarıdan çoxunun heç bir fəaliyyəti yoxdur. Onlar, sadəcə, kağız üzərində mövcud siyasi təşkilatlar sayıla bilər. 20-yə yaxın partiyanın isə müəyyən fəaliyyəti müşahidə olunur. Ən azından onların bir çoxunun sədrlərinin mediada açıqlamalarına, tədbirlərə qatıldıqlarına rast gəlirik.

Dövlət qeydiyyatından keçmiş partiyaların üzdə olanlarının əksəriyyəti müxalifət partiyalarıdır. Belə olduğu halda ana müxalifət partiyasının AXCP, yoxsa REAL Partiyası olduğu məsələsinin müzakirəyə çıxarılması şübhəsiz ki, digərlərinin narazılığı ilə qarşılanacaq və məntiqsiz görünəcək. Eyni zamanda ortaya zaman-zaman gündəmə gətirilən "Ana müxalifət partiyası hansı partiyaya deyilir" sualı çıxacaq.

Öncə ondan başlayaq ki, Azərbaycan siyasi leksikonuna "ana müxalifət" termini ölkəmizdə müstəqillik bərpa edildikdən və çoxpartiyalı sistem formalaşdıqdan sonra daxil olub. Bu terminin ən çox populyar olduğu və rəsmi status daşıdığı ölkələrdən biri Türkiyədir. Azərbaycan siyasətçilərinin də onu məhz Türkiyədən götürdüyü bildirilir. Qardaş ölkədə parlament seçkilərində ikinci yeri tutan partiya rəsmi olaraq ana müxalifət statusunu qazanmış olur. Hətta ana müxalifət partiyasının lideri dövlət protokolunda rəsmi şəxslər sırasına daxil edilir.

Onu da qeyd edək ki, ana müxalifət daha çox parlamentli respublika idarəçilik üsulu olan ölkələrdə əhəmiyyət daşıyır. Prezident üsul-idarəçiliyi olan dövlətlərdə belə bir bölgü adətən aparılmır. Demokratik seçkilər keçirilməyən, seçkilərin demokratikliyi şübhə altına alınan ölkələrdə isə ana müxalifətin kim olduğunu dəqiq müəyyənləşdirmək çətin olur, yaxud da ümumiyyətlə, mümkün olmur. Bu cür ölkələrdə hansısa partiya özünü ana müxalifət elan etsə belə, bu, şübhə altına alınır, mübahisə mövzusuna çevrilir.

Azərbaycana gəldikdə, məlumdur ki, bizdə parlamentli respublika idarəçiliyi mövcud deyil. Müstəqilliyimiz bərpa olunandan bəri də mövcud olmayıb. Buna baxmayaraq, 20 ildən artıqdır ana müxalifətin kimliyi barədə mübahisələr gedir. Azərbaycanda keçirilən parlament seçkilərinin demokratikliyi adətən mübahisə mövzusu olduğundan seçkilərin nəticələrinə əsaslanmaqla ana müxalifətin kim olduğunu dəqiqləşdirmək mümkün deyil. Hazırda parlamentdə 12 partiya təmsil olunur. Hakim Yeni Azərbaycan Partiyasından sonra deputat sayına görə ikinci yeri Vətəndaş Həmrəyliyi Partiyası tutur. VHP-nin iki deputatı var. Deputat sayına görə ana müxalifətin kimliyi müəyyənləşdirilərsə, bu məntiqlə VHP bu gün ana müxalifət partiyasıdır. Ancaq sirr deyil ki, bu partiyanın ana müxalifət olduğunu nə cəmiyyət qəbul edəcək, nə də digər partiyalar. Ana müxalifət adına illərdir daha çox iddia edənlər hazırda parlamentdə olmayan bir neçə partiyadır. Onların başında Müsavat, AXCP və AMİP gəlir. Bu iki partiya bir zamanlar ayrı-ayrı vaxtlarda parlamentdə təmsil olunanda da, indi də məhz özünün ana müxalifət olduğunu bəyan edib. Mövqelərini isə xalq arasında nüfuzları, hakimiyyətə qarşı mübarizə aparmaları, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmələri və digər arqumentlərlə əsaslandırmağa çalışıblar.

Onların parlamentdə YAP-dan sonrakı yeri tutduqları dövrlər də olub. AMİP 1995-2000-ci illərdə, AXCP 2000-2005-ci illərdə, Müsavat Partiyası 2005-2010-cu illərdə Milli Məclisdə hakim partiyadan sonra sayca ikinci partiya olublar. Bu dövrlərdə onlar özlərini birmənalı olaraq ana müxalifət kimi təqdim ediblər. Hazırkı Milli Məclisin tərkibində isə bu partiyalardan heç biri, həmçinin aparıcı və stajlı müxalifət partiyalarından olan ADP, Ümid Partiyası, ALP, VİP, KXCP, AXP yoxdurlar. Beləliklə elə bir siyasi tablo ortadadır ki, nə parlamentin tərkibinə əsaslanıb ana müxalifəti orada müəyyən etmək mümkündür, nə də parlamentdən kənardakı partiyaların birini ana müxalifət adlandırmaq. Görünür, elə bu səbəbdəndir ki, ölkənin tanınmış iki siyasi partiya liderinin gözlənilən debatından ana müxalifətin kim olduğunun müəyyənləşəcəyini iddia edənlər tapılır.

**ADP sədri Sərdar Cəlaloğlu isə bəzi səbəblərə görə ana müxalifət termininin artıq gündəmdən çıxdığını deyib. O bildirib ki, əvvəla, partiyaların ana müxalifət adına iddialı olmalarının iki səbəbi var. Birincisi, özlərini ölkədə ən güclü partiya kimi göstərmək istəmələridir. İkincisi, ölkədə demokratik təşkilatların mövcudluğuna maraqlı olan müəyyən qüvvələrin seçim imkanının olmasıdır:** "Uzun illərdir ölkədəki ictimai-siyasi vəziyyət partiyaların zəifləməsinə gətirib çıxarıb. Bu gün xalqın problemlərini təkcə öz çiyninə götürəcək elə bir partiya yoxdur. Yalnız blok şəklində birləşib nəsə etmək olar. Bu iki obyektiv səhvin ucbatından indi ana müxalifət deyilən anlayış yoxdur".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Müxalifət qışdakı seçkilərlə bağlı qərarsızdır

## YAP seçki hazırlıqlarına başlayıb, rəqibləri isə hələ gözləyir

**Ötən həftə Yeni Azərbaycan Partiyasının İdarə Heyəti 2019-cu ilin 27 dekabrında keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq işlərini müzakirə edir. Qeyd olunub ki, ölkəmizdə keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq işlərinə artıq start verilib. Partiyanın bu seçkilərə hazırlığı məsələləri təsdiq edilmiş tədbirlər planına uyğun olaraq həyata keçirilir.**

Müxalifət partiyalarında da bələdiyyə seçkilərinə hazırlıq başlayıbmı?

**AĞ Partiyanın sədri Tural Abbaslı** "Yeni Müsavat"a bildirdi ki, partiya olaraq bələdiyyə seçkilərində iştirak edəcəklər, bu barədə mövqeləri qətidir: "Ancaq bu seçkilərə xüsusi enerji sərf etmək fikrində deyilik. Çünki heç kəsə sirr deyil ki, bələdiyyələr Azərbaycanın nə siyasi, nə sosial, nə də iqtisadi həyatında hansısa xüsusi çəkiyə malik deyil. Bu institut yalnız dövlətin Avropa Şurası qarşısında götürdüyü öhdəliyə görə imitasiya xarakterli təsis edilib. Bələdiyyələr hazırda icra hakimiyyəti orqanının hansısa bir bölümü və ya şöbəsi kimi fəaliyyət göstərir. Bunu hətta YAP-ın rəhbərliyinə daxil olan bəzi şəxslər də zaman-zaman mediada etiraf ediblər. Bələdiyyə seçkilərində partiya kimi iştirak hüquqi baxımdan ən qəliz prosedurlardan keçir. Bir sözlə, demək mümkündürsə, bələdiyyələr siyasi baxımdan rentabelli deyil. İnanmıram ki, elə YAP başda olmaqla hansısa partiya bu seçkilərə xüsusi diqqət və enerji ayırsın. Sadəcə olaraq, YAP-ın keçirdiyi tədbirlər də cəmiyyətdə və beynəlxalq aləmdə bələdiyyələrin guya önəmi barədə illüziya yaratmaq cəhdidir. Hətta bizə daxil olan məlumatlara əsasən son 5 ildə iqtidar partiyasından bələdiyyə seçilənlərin böyük əksəriyyəti artıq təmsilçilikdən boyun qaçırıblar. Hakim partiya həmin insanları müxtəlif yollarla yenidən namizəd etmək istəyir. Yəni vəziyyət bu qədər açıq və tragikomikdir. Biz, sadəcə, siyasi proses yaratmaq naminə bələdiyyə seçkilərində iştirak etməyi düşünürük".



**AMİP-in sədr əvəzi Arzuxan Əlizadə isə bildirdi ki, digər partiyaların bələdiyyə seçkilərində iştirakla əlaqədar hansı qərar verəcəkləri, hansısa hazırlıq aparıb-aparmadıqlarından məlumatsızdır. AMİP-də isə mövqe belədir ki, seçkilərdə iştirak edilməlidir:** "Təəssüf ki, seçkilərə olduqca az müddət qalmasına baxmayaraq müxalifət düşərgəsində seçkilərlə bağlı canlanma yoxdur. Heç şübhəsiz, buna əsas səbəblərdən biri olaraq ölkədə bələdiyyə institutunun işləməməsi, bələdiyyələrin statusunun aşağı səviyyədə olması göstərilə bilər. Lakin biz AMİP olaraq ölkədə keçirilən bütün ranqlı seçkilərdə iştirakı vacib hesab edirik. Bu mənada partiyada seçkilərə hazırlıq məsələsi mütəmadi olaraq gündəmdə saxlanılır. Hələlik rəsmi qərar olmasa da partiya rəhbərliyinin ilin əvvəlindən yerli təşkilatlara etdiyi səfərlər zamanı bələdiyyə seçkilərində iştirakla bağlı məsələ də geniş müzakirə olunub və müvafiq tapşırıqlar verilib. Hesab edirəm ki, partiyanın yaxın günlərdə keçirilməsi nəzərdə tutulan Mərkəzi Şurasının iclasında AMİP-in qarşıdan gələn bələdiyyə seçkilərində iştirakı ilə bağlı məsələ müzakirə olunaraq müvafiq qərar veriləcək".

**ADP sədrinin seçkilər üzrə müavini Taliyət Əliyev isə qeyd etdi ki, seçkilərə rəsmi qaydada start oktyabr ayının sonlarında veriləcək. Bu baxımdan hələ ki kifayət qədər zaman var ki, qarşıdan gələn bələdiyyə seçkilərində iştirak edib-etməyəcəyimizi müəyyənləşdirək:** "Bu barədə partiyamızda hələ ki heç bir müzakirə aparılmayıb. Amma hesab edirəm ki, bu ayın sonları və ya gələn ayın əvvəllərində bələdiyyə seçkilərində iştirak edib-etməyəcəyimizlə bağlı partiyanın qərarı olacaq və bu barədə ictimaiyyətə də məlumat veriləcək. Qərar verilmədiyi üçün hazırlıq işlərinə də başlanmayıb".

KXCP sədri Xəzər Teyyublu bildirdi ki, bələdiyyə seçkilərində iştirak edib-etməmək məsələsi partiyada müzakirə olunmayıb. Ola bilsin yaxın vaxtlarda müzakirə ediləcək və hansısa qərar veriləcək. Odur ki, bu gün üçün bələdiyyə seçkilərinə hazırlıq işləri aparılmır.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# İctimai multfilm

Zamin HACI
zaminhaci@gmail.com

"Nə yaraqçı, nə mənim bütün əsləhələrim, nə bənizimin solğunluğu, nə də hədsiz arıqlığım sizi təəccübləndirməməlidir, çünki indi siz mənim kim olduğumu, məşğuliyyətimin növünü bilirsiniz"
***(Servantes, "Lamançlı Don Kixot")***

**İranın yəmənlilərin əliylə Səudiyyənin neft zavodunu yandırması işimizə yaradı. Dünya bazarında neftin qiyməti qalxdı. Deməli, pulumuz çox gələcəkdir, hətta mümkündür Səyavuş müəllim uşaq pulunu yenidən "qaldırsın". Çox adam bilmir, dünyada fəlakət olanda adətən bizim işimizə yarayır, misal üçün, İkinci Dünya savaşı zamanı amerikalılar Lend-Liz proqramı ilə SSRİ-yə yardım göndərəndə bunun yollarından biri məhz Azərbaycandan keçmişdi. Yanacaq, ərzaq, avtomobillər İrana gətirilir, Astaradan bəri ötürülürdü. Həmin dövrdə o karvanların sovet ordusuna rahat çatması üçün həm Quzey, həm Güney Azərbaycanda avtomobil və dəmir yollarına babat əl gəzdirməli, təmir etməli olmuşdular. Astara-Bakı yolu həmin proqramın sayəsində keçən ilə qədər babat vəziyyətdə qalmışdı.**

Kopenhagendə yaşayan soydaşımız, həkim Məsud Aşinanı isə bugünlərdə Dünya Başağrısı Cəmiyyətinin sədri seçiblər. Deyir Məsud həkim hazırda planetdə baş ağrısından ən yaxşı baş çıxaran adamdır. Şübhəsiz. Başqa nə cür olardı? Biz azərbaycanlılar neçə yüz illərdir baş ağrısı bol olan regionda yaşayırıq, heç başımız ağrımayan vaxtımız olmadı. İşin sənətkarı olmağa məhkum idik.

Ancaq mən İTV-nin şefi Balakişi müəllimi başa düşmədim. Dünən internetdə İTV-nin bir "yeniliyini" paylaşmışdılar, Balaş müəllim... multfilmə intervü verirdi. Guya bu 3D robot idi, soyadını da nədənsə rusca "Dadaşlinski" qoymuşdular (bəlkə də robotumuzun şimaldan gəldiyinə işarə idi; vay səni Ezop TV!) Doğrudanmı artıq efirə çıxarmağa canlı müxbir qalmayıbdır? Azərbaycan xalqının əvəzinə multfilmi danışdırmaq, animasiya müzakirələr açmaq tez deyilmi? Biz hələ uşaq pulu almalıyıq. Hələ müxalifət 77-ci dəfə birləşib ayrılmalıdır. XİN ermənilərin məsuliyyətsizliyi temasında növbəti bəyanat basmalıdır. Neçə ildir biz bu yaramazlarda məsuliyyət hissi yarada bilmədik ki, bilmədik. Hələ Paşinyan... Lap ermənipərəst kimi aparır özünü. Mənə elə gəlir o həm də xaricdən maliyyələşir.

Bu arada mövzumuza dəxli olmasa da (?!) tovuzlu hüquqşünas Firudin Ələkbərlinin qətlindən kədərləndiyimi bəyan edirəm. Mən onunla şəxsən görüşmüşdüm, hardasa 10 il qabaq. Olduqca koloritli, maraqlı, zəngin daxili aləmi olan insan idi. Adicə bir görkəm detalına diqqət edin: 15-20 il qabaq Azərbaycanın hansısa regionunda ispan saqqalı saxlayan çoxmu adam görərdiniz? Firudin bəy həm xaricdən, həm daxilən azad adam idi. Onu danışdırıb Azərbaycanın yaxın tarixi üçün olduqca önəmli, satirik-yumoristik məzmunlu, ictimai-siyasi əhvalatları lentə almaq olardı. Heyf, deyəsən, bunu heç kəs etməyib. Tək Tovuz rayonu üçün yox, ölkəmiz üçün böyük itkidir. Bir dostumuz isə Firudin bəyi qətlə yetirən tipə "Şöhrət", yoxsa "Tərəqqi" medalı veriləcəyi üzərində proqnozlar fikirləşir. Potensialımızı qiymətləndirməkdə acizəm, bəlkə "İstiqlal" da alar.

Bəli, ictimai televiziyanın müdiri multikə intervü verməklə Patamdarın Palo-Alto olması mümkün deyil. Xüsusilə eyni günlərdə ölkənin enerji sektoruna baxan adamın kabinetini cadudan təmizləmə ayini həyata keçirilirsə, demək, bizdə elektronlar hələ də cinlər və şəyatinlər sayəsində tərpəşir, generatorlarımızın pultu dalında isə ifrit və qulyabanılar dayanıbdır. Özü də bu hal bütün dövlət idarələrimizə yayılmaqdadır, keçən aylarda səhv eləmirəmsə hansısa gömrük idarəsində qurd yağı təmizləyən mollanın kinosu çıxmışdı. İnsafən hər iki çəkilişdə 3D keyfiyyəti yoxdur, hələlik bu sahədə bizim liderimiz İTV-dir.



# Ermənistanda qalmaqallı istefalar - Paşinyan meydanda tək qalır

## İslahatları vəd olaraq qalan inqilabçı baş nazirin komandasında dərin çatlar yaranıb; baş kəşfiyyatçı öz vəzifəsini itirdi; güc strukturlarının digər rəhbərləri də istefaya göndərilə bilər - səbəblər...

**Ermənistan prezidenti Armen Sərkisyan dünən Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyanın vəzifədən azad edilməsi haqda sərəncam imzalayıb. Bundan bir gün qabaq baş nazir Nikol Paşinyan mətbuat konfransı vaxtı Artur Vanetsyanı istefaya göndərdiyini açıqlamışdı.**

Ermənistan konstitusiyasına görə, hökumət üzvləri baş nazirin təqdimatı əsasında prezident tərəfindən təyin edilir. "Qraparak" qəzeti hökumətdəki mənbəyə istinad edən xəbər verib ki, Paşinyan bu vəzifəyə dostu Vaqe Kazaryanı təyin edə bilər. Həmin vəzifəyə gətiriləcək şəxslər arasında keçmiş müdafiə naziri Vaqarşak Arutyunyanın da adı çəkilir.

*****

Xatırladaq ki, Artur Vanetsyan Qarabağ məsələsində az qala, Paşinyandan da mürtəce mövqeyi ilə fərqlənirdi. Təkcə belə bir faktı yada salmaq yetər ki, bu ilin əvvəllərində işğal altındakı Füzuli rayonunda olan Vanetsayn Azərbaycana "bir qarış torpağın da qaytarılmayacağını", əksinə, Arazboyu ərazilərin məskunlaşdırılacağını və ora Ermənistandan yol çəkiləcəyini bildirmişdi.

**"Atlas" Araşdırmalar Mərkəzinin bu mövzuya həsr olunan təhlilində istefanın səbəblərinə toxunulub:** "Vanetsyanın öz sözlərinə görə, qərarların necə gəldi verilməsi, hədəflərin qarışıqlığı onu istefa verməyə vadar edib. Keçmiş MTX direktoru onu da deyib ki, aparılan siyasət zabit andına uyğun deyil. Vanetsyanın son cümləsi "Dayanın!" ifadəsi ilə bitir. Bu, Paşinyan hakimiyyətdə olduğu dövrdə ən ciddi və rezonans doğuran istefadır. Vanetsyan istefası ilə bağlı nə deyibsə, həmin sözlər Nikol Paşinyana aiddir. Onun "dayanın" çağırışı da Paşinyana ismarışdır".

Bəs görəsən, Paşinyan nəyi dayandırmalıdır? Baş nazir nə edib ki, kəşfiyyata başçılıq edən birisi hesab edib ki, baş nazir mövcud siyasəti ilə Ermənistanı uçuruma aparır?

**Mərkəzin təhlilində bu ilin may və iyun aylarında Paşinyanla Vanesyan arasında baş verən qiyabi dialoqa diqqət çəkilir:** "Paşinyan mətbuat konfransında demişdi ki, "məxməri inqilab"dan əvvəl keçmiş hakimiyyətin təmsilçiləri Milli Təhlükəsizlik Xidmətində bir sıra sənədləri məhv ediblər. İtən sənədlərin sayından və məzmunundan heç kimin məlumatı yoxdur. Paşinyan bunu cinayət adlandırmışdı. Buna cavab olaraq Vanesyan bildirmişdi ki, Ermənistan Milli Təhlükəsizlik Xidmətindən 2008-ci ilin mart hadisələri ilə bağlı itən sənədlərdən xəbəri var, ancaq bu informasiyanı açıqlaya bilməyəcək. Vanetsyan Milli Təhlükəsizlik Xidmətindən sənədlərin itməsi faktı ilə bağlı cinayət işi başlamayacağını da vurğulamışdı".

**Təhlildə Paşinyanla Vanetsyan arasında ixtilaf olduğu vurğulanır:** "Görünür, ixtilafa 2008-ci il hadisələrinə fərqli baxışlar səbəb olub. Paşinyan bütün vasitələrlə 2008-ci il hadisələrində əli olan bütün siyasətçiləri və hərbçiləri məsuliyyətə cəlb etmək istəyir. Vanetsyan isə bunun əleyhinə olub. Belə çıxır, Artur Vanetsyan eks-prezident Robert Köçəryanın da həbsdə qalmasının əleyhinədir. Digər tərəfdən, Ermənistan Milli Təhlükəsizlik Xidmətinə rəhbərlik edən birisi Rusiyanın müvafiq orqanları ilə sıx əməkdaşlıq etməlidir. Artur Vanetsyanın 2002-ci ildə Rusiyanın Federal Təhlükəsizlik Bürosunun (FTB) Akademiyasında ixtisasartırma kursu keçdiyini xatırlatmaq yerinə düşər. Paşinyanla Vanetsyan arasındakı fikir ayrılığına Rusiya amili də səbəb ola bilərdi".

*****

"Artur Vanetsyanın dünən qəfildən istefa verməsi onunla baş nazir Nikol Paşinyan arasında Qarabağa dair yaranmış ixtilaflarla bağlı ola bilər". Virtualaz.org xəbər verir ki, belə versiya erməni KİV-lərində irəli sürülür. Artur Vanetsyan demarş xarakterli bəyanatla çıxış edərək bu vəzifədə qalmasını "zabit şərəfi ilə uyğun gəlməyən" məsələ adlandırıb. Və istefasının "ayıldıcı mesaj" olduğunu vurğulayıb.

**Ermənilərə bağlı "Regnum" agentliyinin baş redaktoru Modest Kolerov isə hesab edir ki, Vanetsyanın istefası ilk iri istefadır və Paşinyanın hökumətində baş vermiş böyük çatdır.** "Bu, baş nazir üçün çox pis və kədərli hadisədir", - deyə o qeyd edib. Hərçənd Kolerov Artur Vanetsyanın Qarabağa dair yaranmış ixtilaflara görə istefa verməsini o qədər də ağlabatan saymır. Çünki onun yaydığı bəyanatda Qarabağ mövzusuna dair hər hansı eyham yoxdur.

*****

Bu arada yerli mediada müdafiə naziri David Tonoyan və Ermənistanın baş polisi Valeri Osipyanın da istefaya göndəriləcəyi barədə xəbərlər yer alıb. Heç bir hərbi təhsili olmayan və orduda xidmət keçməyən müdafiə naziri Tonoyan daha çox Azərbaycanı yeni ərazi işğalı ilə hədələməsi ilə yadda qalıb. Özü də bunu o, ABŞ-da səfərdə olarkən, yerli erməni icması ilə görüşü zamanı bəyan etmişdi. Bununla Tonoyan onsuz da dalanda olan kövrək sülh danışıqlarını bir az da dalana itələyib. Ölkənin baş polisi Valeri Osipyanın taleyinə gəlincə, sirr deyil ki, inqilabdan sonra Ermənistanda polisdən narazılıq azalmaq əvəzinə artıb.

"Ermənistan polisi, faktiki, iflic olub. Açılmamış cinayətlər çoxluq təşkil edir. Hüquq-mühafizə orqanları özünün profilaktik funksiyasını da yerinə yetirə bilmir. Cəmiyyət hər yerdə polisdən məyus durumdadır. Nəticədə ölkədə "məhkəməsiz cəzalandırma" sistemi ("samosud" - "YM") geniş yayılmaqdadır".

**"Yeni Müsavat"ın məlumatına görə, bu sözlər 1in.am portalında dünən getmiş məqaləndəndir. Müəllif Sərkis Arsruni bu mövzuda daha sonra yarır ki, təkcə Osipyanın istefası ilə də problemlər yoluna qoyulmayacaq.** "Çünki problem daha dərindir və yalnız kadr dəyişikliyi ilə həll oluna bilməz. Hüquq-mühafizə orqanları isntitusional səviyyədə post-inqilab reallıqlarına adaptasiya olunmalı, təcili şəkildə onların parlamentə hesabat-asılılığı təmin olunmalıdır. Əks halda, o, inqilab komandası üçün "apendiks"ə çevriləcək", - deyə o, qeyd edib.

*****

Maraqlıdır ki, Paşinyanın komandasında baş verən qalmaqallı kadr istefaları baş nazirin ABŞ səfərinə sayılı günlər qaldığı dönəmə təsadüf edir. Bu mənada baş verənlərin təsadüfi olub-olmadığı məsələsi ortaya çıxır. Hər necə olmasa, ABŞ Paşinyandan il yarımdır təkcə islahatlar məsələsində deyil, Qarabağ məsələsində də ciddi irəliləyiş gözləyir. Çünki hesab edilir ki, məhz bu yolla Ermənistan Rusiyanın hərbi-siyasi orbitindən uzaqlaşa, bölgədə müharibə riski minimuma enə bilər.

Bundan ötrü Nikol Paşinyan peşəkar, konstruktiv baxışlı kadrları öz ətrafına toplamalıdır, nəinki "qırğıları". Bu, dünyaya, baş nazirin böyük maliyyə dəstəyi umduğu Qərbə yaxşı bir mesaj olardı. Elə Paşinyanın özünün də konkret olaraq Qarabağ məsələsində konstruktivizmə köklənməsinin və Bakı ilə dil tapmaq üçün real addım atmasının vaxtı çatıb. Əks təqdirdə, Ermənistanda siyasi təlatümlər, o sırada inqilablar və iqtisadiyyatın çöküşü davam edəcək. Ölkədə müharibə xofu və onun acı nəticələrindən biri kimi kütləvi köç səngiməyəcək.

**Paşinyan, nəhayət, öz seçimini eləməlidir. Qarabağda böyük savaş, yoxsa sülh? Bu da onun seçimindən asılı olacaq...**

❑ "Yeni Müsavat"ın analitik xidməti

# Səudiyyədə yanan neftin "tüstüsü" Azərbaycan sərhədinə çatdı - təhlükə

## Səudiyyə Ərəbistanında iki neftayırma zavoduna hücum İranla müharibə üçün bəhanə ola bilər

**Sentyabrın 13-dən 14-nə keçən gecə pilotsuz uçan aparatların Səudiyyə Ərəbistanında iki neftayırma zavoduna hücumu dünya gündəminin əsas mövzularından birinə çevrilib. Hücumun məsuliyyətini Yəməndəki qiyamçı husilərin "Ənsar Allah" hərəkatı öz üzərinə götürüb. Hətta qiyamçı hərəkat Səudiyyə Ərəbistanının neft emalı zavodlarına yenidən hücum ediləcəyi barədə xəbərdarlıq edib.**



Bu hadisə sutkalıq neft hasilatının 5,7 milyon barel azalması ilə nəticələnib. OPEC-in məlumatına görə, 2019-cu ilin avqustunda Səudiyyə Ərəbistanı sutkada 9,8 milyon barel neft istehsal edilib. ABŞ-ın dövlət katibi Mayk Pompeo hücumlarda İranı təqsirləndirir.

"ABŞ Səudiyyə Ərəbistanının neft emalı zavodlarına hücumlara görə İranı ittiham etməklə gərginlik yaratmaq istəyir. Bu kimi fikirlərin əsası yoxdur".

**Bunu APA-nın Tehran bürosunun sualına cavab olaraq İran hökumətinin siyasi, ictimai və mədəniyyət üzrə sözçüsü Əli Rəbii deyib. O bildirib ki, İran bölgədə sabitliyin tərəfdarıdır və belə hadisələrin baş verməsində maraqlı deyil.**

"Təəssüflər olsun ki, bölgədə gedən müharibənin köklərinə diqqət edilmir. 5 ildən çoxdur Yəmən xalqı ən ağır hücumlara məruz qalır. İnsanlığa zidd hərəkətlərə şahid oluruq. Çox sayda günahsız insan öldürülüb, evlərindən didərgin düşüb. Yəmən xalqına qarşı amansız müharibə aparılır. Yəmənli mütəxəssislər imkan və potensiallarını genişləndiriblər. Onların da bölgədə müttəfiqləri var. İntiqam almaqla, qan tökməklə bölgədə münaqişələrin həlli mümkün deyil. Bilsinlər ki, bu yolun sonu dalana dirənəcək. Bölgədə yaşayan xalqlar bundan ziyan görəcək, hegemon güclər, o cümlədən ABŞ isə mənfəət qazanacaq" deyə, o bildirib. ABŞ prezidenti isə müttəfiqləri olan ölkəyə hücuma görə günahkarların cəzaladırılacağını deyib.

Bu hadisə ilə əlaqədar ekspertlərin ən müxtəlif mülahizələri var. Çoxları hesab edir ki, əslində İranı günahlandırmaqla bu ölkəyə qarşı Amerika hücum üçün bəhanə axtarır. Heç şübhəsiz ki, Səudiyyədəki neft yanğını aylarla çəkə bilər ki, bu da dünya iqtisadiyyatına ciddi təsir edəcək. Azərbaycan üçün də ciddi risklərin açıldığı qeyd olunur. İran üzərinə hücum planı hazırlanarsa, Azərbaycan seçim etməyə məcbur olacaq ki, bunun necə bir təhlükələr yarada biləcəyi göz önündədir.

**İqtisadçı alim Fikrət Yusifov bildirdi ki, bu hadisə dünyanın iqtisadi sisteminə ciddi təsir edə biləcək gücdədir:** "Əgər Səudiyyə Ərəbistanı yaxın günlərdə dronların hücumu nəticəsində dağıdılmış neft infrastrukturunu bərpa edə bilməsə, bunun nəticələrini biz neft bazarında qiymətlərin bundan sonrakı kəskin artımında görə, biləcəyik. Verilən məlumatlara görə bu hadisə dünya neft bazarına çıxarılan neftin həcminin 6%-ə qədər azalması deməkdir. Bu isə neftin qiymətlərinin sürətlə artması üçün ciddi bir əsasdır. Əgər hasilatın hər hansı bir ölkədə 300-500 milyon barel artıb azalması neftin bazar qiymətlərinə ciddi təsir edə bilirsə, onun birdən-birə 5 milyon barelə qədər azalmasının nə demək olduğunu anlamaq çətin deyil. Bu məsələdə kimlərinsə əl qızdıracağı da hesablanmamış deyil. Lakin əsas olan budur ki, bu itki tezliklə bərpa olunmasa, bazarda qiymətlərin artımının qarşısını almaq mümkün olmayacaq. Bir başqa məsələ isə dünyanın ən böyük neft hasilatçısı olan bir ölkənin öz neft infrastrukturunu belə hücumlardan qorumaqda aciz durumda olmasıdır. Neftin olması, neftdən yüz milyardlarla dollar valyuta gəlirlərinin əldə edilməsi hələ hər şey demək deyil. Keçən 2018-ci ildə Səudiyyə Ərəbistanı hərbi xərclərin həcminə görə dünyada üçüncü yerə "layiq" görülüb. Bir ildə 68 milyard dollara qədər hərbi xərc edən bir ölkənin gözlənilən dron hücumuna cavab verə bilməməsi nə deməkdir? İndi rusların silah bazarı daha yaxşı işləyəcək. Onlar həmən Səudiyyə Ərəbistanına S-400 və S-500 hava hücumundan müdafiə komplekslərini almağı təklif ediblər. Bu hadisədə kimin barmağının olmasını tapmaq da bir o qədər asan olmayacaq. İran təbii ki, ilk şübhə doğuran ölkədir. Səudiyyə Ərəbistanı ilə İran arasında son illər ərzində yaranmış gərgin münasibətlər bu şübhəni ortaya qoyan əsas məqamlardan biridir. Digər bir şübhə isə ondan ibarətdir ki, kimlərsə bu hadisəni təşkil etməklə ABŞ-ın neftin qiymətlərinin azldılması istiqamətindəki səylərinə dolayı yolla belə cavab vermək istədilər".

**Politoloq Məhəmməd Əsədullazadə yarana biləcək təhlükələrdən söz açdı:** "Səudiyyə Ərəbistanının neft emalı zavoduna Husilər tərəfindən hava hücumu gərginliyi artırsa da, bu, İrana qarşı ABŞ-ın müdaxiləsinə səbəb olmayacaq. Bu hücumun arxasında bilavasitə İranın İran İslam İnqilab Keşikçiləri Ordusu "SEPAH"ın durmasını istisna etmirəm. Bu hücum BMT-də Tramp və Ruhani görüşünün mümkün olduğu bir vaxtda reallaşdı. Demək, ABŞ-İran dialoqunun baş tutmamasında maraqlı qüvvələr var. Qeyd edim ki, İranda SEPAH və digər mühafizəkarlar Tramp-Ruhani görüşünün əleyhinədir. Belə bir hücumu reallaşdırmaqla Ruhaninin Trampla görüşünü mümkünsüz etdilər. Artıq Tramp da belə bir görüşü ləğv etdi və İrana qarşı müharibə anonsu verdi. Səudiyyə Ərəbistanı bu hücumdan sonra Yəməndə hərbi aktivliyini artıracaq. İran-Səudiyyə savaşı Yəməndə yeni mərhələyə keçəcək. Yenidən Səudiyyənin yeni neft terminallarına qarşı hücumlar istisna edilmir. İran faktiki şəkildə Husilər vasitəsilə Ər-Riyada zərbələri davamlı edəcək. Tramp gələn il seçkilərinə kimi İranla müharibədən qaçacaq. Əgər növbəti seçimdə Tramp qələbə qazansa, İranla münasibətlər kəskinləşsə, müharibəyə gedə bilər. ABŞ və regiondakı müttəfiqləri İranın bu aqressiyasının mütləq qarşısını almaq üçün hərəkətə keçəcəklər. Hesab edirəm ki, Tramp administrasiyası qəti şəkildə bu ssenarini hazırlamayıb. Burada Rusiya faktoru ondan ibarətdir ki, İranla müttəfiqdir və ABŞ cəbhəsinə qarşı Tehranla birgə hərəkət edir. Rusiya həmçinin Husiləri dəstəkləyir, Səudiyyə-Husi qarşıdurması onun regionda maraqlarına xidmət edir. Boltonun vəzifədən kənarlaşdırılması əsasən İranla dialoqa imkanlar açırdı. Qeyd etdiyim kimi, İranda mühafizəkar qüvvələr ABŞ-İran dialoquna qarşıdırlar. İranın bu hücumda əli tam təsdiqlənsə, bunun bədəli ağır olacaq. Amma birbaşa müharibə ehtimalı gözlənilmir. Bu, Trampın siyasətinə uyğun deyil. Sadəcə, İrana qarşı ciddi sanksiyalar tətbiq ediləcək və onun Suriyada bazaları vurulacaq. Hətta ABŞ özü Husilərə qarşı əməliyyat keçirə bilər. Səudiyyə Ərəbistanının neft mədənlərinə qarşı dron hücumları göstərir ki, rəqib ölkələr bu vasitədən istifadə edirlər. Rusiya artıq bəyan etdi ki, belə hücumlara qarşı neft mədənləri qorunacaq. Ölkəmizin Xəzər dənizində neft-qaz platformalar var. Belə hücumlardan gələcək perspektivdə qorunmaq üçün havadan müdafiə sistemləri inkişaf etdirilməlidir. Neft yataqları qorunmalıdır. Regionumuz üçün bu, təhlükəli bir situasiyadır. Rusiya və İran Azərbaycanla həmsərhəddir. İki ölkə çox aqressiv siyasət aparır. Qərbin Xəzər dənizində şirkətləri çalışır. Ona görə də Azərbaycan üçün bu müharibənin başlanması arzuolunan deyil".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Regional sabitlik və təhlükəsizlik-nazir diplomat və hərbi atteşe ilə görüşüb

## Britaniyalı diplomat yeni çağırış və təhdidlərlə mübarizədə birgə səylərin gücləndirilməsinin vacibliyini vurğulayıb

**Sentyabrın 17-də müdafiə naziri general-polkovnik Zakir Həsənov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ceyms Şarp ilə görüşüb.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, müdafiə naziri səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib və ona Azərbaycan ilə Böyük Britaniya arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan müdafiə naziri Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini, ATƏT-in Minsk Qrupu həmsədrlərinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylərinə baxmayaraq sülh danışıqlarının rəsmi İrəvan tərəfindən qəsdən yubadıldığını vurğulayıb.

Görüşdə iki ölkə arasında müdafiə sahəsində, o cümlədən terrorizmə qarşı mübarizə və sülhməramlı əməliyyatların keçirilməsi üzrə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Tərəflər ölkələrimiz arasında hərbi-texniki sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu və bu imkanların genişləndirilməsinin vacibliyini vurğulayıblar.

Ölkələrimiz arasında hərbi təhsil sahəsində əldə olunan razılaşmaların inkişaf etdirilməsinin, hərbi ingilis dili kurslarının davamının və onların dinləyicilərinin sayının artırılmasının zəruriliyi də xüsusi qeyd edilib.

Ölkəmizdə diplomatik fəaliyyətə başlamasından məmnunluğunu ifadə edən səfir Azərbaycan-Böyük Britaniya əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib.

C.Şarp öz növbəsində Böyük Britaniyanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və ona hörmətlə yanaşdığını qeyd edib, ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu, bunun Cənubi Qafqaz regionunun inkişafı və təhlükəsizliyinin təmin edilməsi baxımından vacibliyini bildirib.

Britaniyalı diplomat həmçinin regional sabitlik və təhlükəsizliyə yeni çağırış və təhdidlərlə mübarizədə birgə səylərin gücləndirilməsinin vacibliyini vurğulayıb, Əfqanıstandakı sülhməramlı əməliyyatlarda fəal iştirakına görə Azərbaycana minnətdarlığını bildirib.

Tərəflər regional və ikitərəfli əməkdaşlıq, Xəzər dənizi və mühüm enerji infrastrukturlarının təhlükəsizliyi, həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələləri müzakirə ediblər.

Sonra britaniyalı diplomat ölkəsinin Azərbaycanda yeni təyin olunmuş hərbi attaşesi polkovnik-leytenant Entoni Bramveli müdafiə nazirinə təqdim edib.

Hərbi attaşeni Azərbaycanda hərbi-diplomatik missiyasına başlaması münasibətilə təbrik edən nazir ona ölkələrimizin orduları arasında əlaqələrin genişləndirilməsi istiqamətində gələcək fəaliyyətində uğurlar arzulayıb.

YENİ MÜSAVAT
N 192 (7362) 18 sentyabr 2019

**Artıq bir ilə yaxındır ki, sürüşmə nəticəsində Badamdar yolu bağlanıb . Belə ki, ötən ilin oktyabr ayında qeyd etdiyimiz ərazidə qəfildən sürüşmə hadisəsi baş verdi. Həmin hadisə nəticəsində torpaq layı sürüşərək, avtomobil yolunun bir hissəsini tutdu. Bu prosesdən sonra yolda hərəkət məhdudlaşdırıldı, ərazidə yaşayanların köçürüləcəyi xəbəri yayıldı.**



# Bakıda Fukusima kimi “qəza”-yaponlar Abutalıbova demişdilər ki...

## Yapon mütəxəssislər niyə Badamdar yoluna çarə tapa bilmədilər? Ekologiya və Təbii Sərvətlər Nazirliyi ötən həftə əraziyə baxış keçirib və...

İşin maraqlı tərəfi isə budur ki, sürüşməyə yaponlar da çarə qıla bilmədilər. Yada salaq ki, ötən il baş verən qeyd etdiyimiz hadisədən sonra Bakıya yaponiyalı mütəxəssislər dəvət edildi.

**Mütəxəssislər ərazidə quyular qazıb, geoloji işlər aparmağa başladılar. Həmin hadisə üzrə görəvləndirilən baş nazirin müavini Hacıbala Abutalıbov demişdi ki, ərazidə yaponiyalı mütəxəssislər çalışır:** “Ərazi geniş şəkildə öyrənilləndən sonra hər hansı bir nəticəyə gəlmək olar. Biz ilkin olaraq belə qənaətə gəldik ki, bütün quyuların suları mütləq analiz edilsin. Bunun üçün Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirliklərinə, ”Azərsu" ASC-yə göstəriş vermişik. Analizlər sabaha qədər hazır olacaq və yapon mütəxəssislərə təqdim olunacaq".

**Baş nazirin müavini qeyd etmişdi ki, həmin ərazidə olan 11 evin səkkizinin divarındakı çatlar böyüyüb:** “Yapon mütəxəssisin sözlərindən belə çıxır ki, sürüşmə zonasında olan 11 ev mütləq sökülməlidir. Əks halda, vəziyyət təhlükəli olaraq qalacaq”. Amma aradan az qala 1 il keçib. Bəs problemin həlli 2011-ci ildə Yaponiyada baş verən sunamidə zədələn Fukusima AES kimi uzandı?

Ərazidə yaşayan sakinlər “Yeni Müsavat”a bildiriblər ki, sürüşmə nəticəsində yolun bağlanması onları çətin vəziyyətə salıb. Sakinlərin sözlərinə görə, vaxtilə ərazidən keçən minik avtomobilləri və eləcə də marşrut xəttinin yolu məcburən dəyişdirilib. Əvvəllər bu yoldan istifadə edənlər indi yolun bağlı olması səbəbindən “Azneft” dairəsini fırlanmalı olurlar. Bu isə günün pik saatlarında yolda tıxaclara səbəb olur. Eyni zamanda Bayıl istiqamətində yaşayanlar da əlavə yol getməli, əziyyət çəkməli olurlar.

### Yolun bağlı qalması üçün ciddi səbəb var?

**Hələ hadisə baş verən ərəfədə “Yeni Müsavat”a açıqlama verən tikinti üzrə mütəxəssis Əzim Məsimov bildirmişdi ki, indiki şəraitdə yapon mütəxəssislərin edə biləcəkləri heç nə yoxdur:** “Badamdara kanalizasiya çəkmək mümkün idi. Çünki hazırkı texnikamız buna imkan verir. Ancaq ötən il ərzində müvafiq qurumlar bu işlə məşğul olmaq bir yana, heç bu istiqamətdə xırda addım belə atmadılar. Abutalıbov dedi ki, biz Yaponiyadan mütəxəssis çağırmışıq. Bu məsələnin özü çox acınacaqlıdır. Necə olur ki, sən öz kanalizasiyana görə Yaponiyadan mütəxəssis çağırırsan və ən azı 1 milyon dollar pul xərcləyəcəksən. Bu işləri nə üçün özümüz etmirik? Hazırda Badamdar ərazisinə xeyli miqdarda su çöküb. Həmin ərazi kökündən sürüşür. Bu, şəhər üçün böyük fəlakətdir. Lakin müvafiq qurumların rəhbərləri bunun qarşısını ala bilmirlər. Nəticədə dövlət və vətəndaş mövcud vəziyyətdən xeyli əziyyət çəkir. Mən bu cür halların baş verəcəyini hələ ötən il demişəm. Bu 1 il ərzində zəng edib soruşmayıblar ki, sürüşmənin qarşısını almaq üçün hansı işləri görək. Yəni nə bilirlər, nə də öyrənmək istəyirlər...”

### Aradan 1 il də keçdi, lakin vəziyyətin dəyişən yönü yoxdur...





**“Yeni Müsavat”a danışan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin baş mühəndisi Əziz Qaralov bildirib ki, qeyd edilən əraziyə ötən həftə baxış keçiriblər:** “Ümumi baxış keçirdik. Müşahidə etdik ki, yuxarı hissəyə çoxsaylı dəmir qırıqları töküblər. Yüngül yük maşınının keçə biləcəyi qədər də yuxarı hissədən cığır açmışdılar. Vəziyyət elə olduğu kimi qalıb. Təhlükə hazırda yoxdur. Ancaq yamacda nə hamarlama işləri aparılıb, nə də başqa bir iş görülməyib. Əgər yağışlar intensivləşərsə, ərazidə yenidən gərginlik yarana bilər. Təxminən 3 ay bundan öncə sakinlər oradakı yolun açılması ilə bağlı bizə məktub ünvanlamışdılar. Həmin məktuba cavab verdim ki, ağır tonnajlı maşınların hərəkəti istisna olmaqla, digərləri noyabr ayının 1-nə qədər yoldan istifadə edə bilərlər. Qeyd etmişdim ki, sonrakı mərhələdə müşahidələr aparıb, tövsiyələr verərik. Söhbət ondan gedir ki, yağışlar başlayandan sonra ərazidə yenidən sürüşmə baş verə bilər. Ona görə də qeyd etmişdik ki, sonrakı mərhələdə baxış keçirib, tövsiyələr verərik”.

Sürüşmə zonasında məskunlaşan əhali bu məsələdə hazırkı baş nazirin müavini Hacıbala Abutalıbovu günahkar bilirlər. Qeyd edirlər ki, məhz onun Bakı Şəhər İcra Hakimiyyətinin rəhbəri olduğu dövrdə ərazidə torpaqlar satıldı, kanalizasiya xətləri çəkilmədi. Hacıbala Abutalıbov isə bildirmişdi ki, sürüşməyə səbəb qanunsuz tikililərdir.

**Yolun bağlı qalmasına görə Avtomobil Yolları Dövlət Agentliyini günahlandıranlar da var. Bu barədə “Yeni Müsavat”a danışan qurumun mətbuat katibi Anar Nəcəfli bildirib ki, yoldakı vəziyyət onların nəzarətində deyil:** "Həmin yolun açılıb-açılmayacağı Bakı Şəhər İcra Hakimiyyəti və Nazirlər Kabinetinin qərarından asılıdır. Ona görə də yolun nə zaman açılacağı ilə bağlı fikir bildirə bilmərik".

Qeyd edək ki, sürüşmə baş verən ərazinin yuxarı hissəsində yerləşən tikililərin əksəriyyəti böyük villalardır. Aşağı hissədə isə iaşə və digər bu kimi obyektlər yerləşir.

❑ **Əli RƏİS, “Yeni Müsavat”**

# Bələdiyyələr “ölü basdırmaqdan” qazanacaqlar

## Torpaq satmaqdan başqa funksiyası olmayan bələdiyyə sektorunun bu işi şəffaf şəkildə həyata keçirəcəyinə inam azdır, amma...

**Bir neçə ay əvvəl Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi İqtisadiyyat Nazirliyi ilə birgə qəbiristanlıq və onların salınması ilə bağlı məsələlərin tənzimlənməsi üçün sənəd hazırlayıb. Sənəd Nazirlər Kabinetində təsdiqlənib. Eyni zamanda qəbiristanlıqların sənəddə nəzərdə tutulduğu kimi, bələdiyyələrin balansına keçməsi ilə bağlı müddət göstərilib.**



Cəmiyyəti ən çox narahat edən məsələ torpağın pulsuz ayrılmasıdır ki, bu da sənəddə əksini tapıb. Amma onun icra mexanizmi ilə bağlı hər hansı şərh verməyib. Yeni torpağın Bakı qeydiyyatında olanlara pulsuz ayrılması nəzərdə tutulub, yoxsa paytaxtda yaşayan hər kəsə şamil ediləcək. Ümumiyyətlə, məzarlıqların bələdiyyələrin balansına keçməsi nə dərəcədə müsbət nəticə verəcək, bunu demək çətindir. Torpaq satmaqdan başqa funksiyası olmayan və rüşvətə bulaşmış bələdiyyə sektorunun bu işi şəffaf şəkildə həyata keçirəcəyi şübhə doğurur.

Qəbiristanlıqlarda ən aşağı qiymət isə Əhaliyə Vətəndaşlıq Xidməti Tresti tərəfindən müəyyən edilmiş dövlət rüsumlarından bir neçə dəfə babadır. Trest tərəfindən idarə olunan 32 qəbiristanlıqda uzunluğu 2,4 metr, eni 1,4 metr və dərinliyi 1,4 metr qəbirin yeri üçün 49 manat, qəbirin qazılması, mişar daşları ilə tikilməsi və dəfn olunma proseduru üçünsə materialların qiyməti istisna olmaqla, 63 manat müəyyən edilib. Əgər ölü tabutla dəfn olunursa, qiymət 79 manata qalxır.

Ramana, Biləcəri, Masazır kimi yerlərdə qəbir evləri ucuzdur, haradasa 700-1200 manat arası bu məsələni həll etmək olar. Məsələn, Hövsanda torpağa tapşırılmaq 800-1000 manatdan aşağı deyil. Binəqədi, Qaraçuxur kimi ərazilərdə hasarlı qəbir evləri 2500-3000 manat civarında dəyişir.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti “Naxçıvan Muxtar Respublikasında qəbiristanlıqların salınması və idarə olunması Qaydaları” haqqında qərarı təsdiqləyib.

Qərarı muxtar respublikanın baş naziri Əlövsət Baxşıyev imzalayıb. Qərara əsasən, qəbiristanlıqlar 3 ay müddətində müvafiq bələdiyyələrə təhvil veriləcək. Eyni zamanda qəbiristanlıqların salınmasına, idarə olunmasına, qorunmasına, köçürülməsinə və bağlı elan edilməsinə, həmçinin dəfnlərin dövlət reyestrinin aparılmasına, meyitlərin ekshumasiyasına və cənazələrin daşınmasına dair tələblər müəyyənləşib. Yeni qəbiristanlıqlar isə yalnız qəbiristanlıq köçürüldükdə, bağlı elan edildikdə və ya yeni yaşayış məntəqəsi salındıqda salınacaq. Qəbiristanlıqlar üçün ayrılan torpaq sahəsinin ölçüləri hər 1000 nəfərə (sakinə) 0,24 hektar hesabı ilə müəyyən ediləcək.

Qəbiristanlıqların məişət (təsərrüfat) içməli su mənbələrinin mühafizə zonalarında, müalicə sağlamlaşdırma yerlərinin və kurortların sanitariya mühafizə zonalarının birinci və ikinci qurşaqlarında, əhali tərəfindən məişət (təsərrüfat), çimərlik və digər mədəni sağlamlıq məqsədləri üçün istifadə olunan dəniz, göl, çay və digər açıq su hövzələrinin sanitariya mühafizə zonalarında, karstlaşmış (suyun təsiri altında torpağı asanlıqla həll olunan süxurlardan ibarət olan sahələrdə relyefin spesifik formaları) və güclü çatlar yaranmış süxurların səthində, həmçinin bataqlıq yerlərində, həddən artıq rütubətli, su saxlayan səthlərin mövcud olduğu ərazilərdə, xüsusi mühafizə olunan təbiət ərazilərində, meşə fondu torpaqlarında, yerin təkində faydalı qazıntılar olan və kənd təsərrüfatına yararlı torpaqlarda, qaz kəmərlərinin və yüksəkgərginlikli elektrik xətlərinin mühafizə zonalarında, dəmir yollarının təhkim zolaqlarında, dövlət və bələdiyyə avtomobil yollarının torpaqlarında salınması qadağan olunub. Eyni zamanda qəbiristanlığın ərazisində su quyularının qazılması və meyvə ağaclarının əkilməsi qadağan edilib.

Bununla yanaşı, qəbiristanlığa girişdə gül köşklərinin, habelə dəfn xidmətlərinin göstərilməsi və qəbirləri ziyarət zamanı tələb olunan digər ləvazimatların satışı üçün köşklərin quraşdırılacaq və qəbiristanlığın fəaliyyəti ilə bağlı bina və qurğular, o cümlədən qəbiristanlığın işçiləri üçün inzibati bina və ya xidməti otaq, sanitar qovşaqlarının, meyitin dəfnə hazırlanması üçün yuyulma yeri tikiləcək.

Qərarda qeyd olunub ki, qəbiristanlığın müdiriyyəti bələdiyyə tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunacaq. Naxçıvan Muxtar Respublikasında yaşayan Azərbaycan Respublikası vətəndaşlarının, Naxçıvan Muxtar Respublikasında olan və ya yaşayan, habelə qaçqın statusu alan əcnəbi və ya vətəndaşlığı olmayan və kimsəsiz şəxslərin dəfn olunması üçün qəbir yerləri qəbiristanlığın müdiriyyəti tərəfindən ödənişsiz ayrılacaq.

❑ **“Yeni Müsavat”**



# Bölgədə böyük sülhün yeganə formulu: "Qarabağ Azərbaycanındır, nöqtə"

## İrəvana ismarış: bu, Bakının maksimalist mövqeyi deyil, müharibədən qaçmağın tək yoludur...

**Rəsmi İrəvan Qarabağ danışıqlarını daha da mənasız edən təxribatçı bəyanatlarını davam etdirir. Belə təxribatçı ritorikanı Ermənistanın baş naziri Nikol Paşinyanın ABŞ səfəri öncəsi və iki ölkənin xarici işlər nazirləri - Elmar Məmmədyarov və Zoqrab Mnatsakanyanın gələn həftə Nyu-Yorkda planlaşdırılan görüşü ərəfəsində də müşahidə etməkdəyik.**



Düşmən tərəf dəridən-qabıqdan çıxır ki, guya məhz Azərbaycanın müharibə tərəfdarı olduğunu, sülhdən qaçdığını dünyaya nümayiş etdirsin. Bunu ABŞ-ın Bakıdakı keçmiş səfiri, Minsk Qrupunun sabiq amerikalı həmsədri Metyu Brayzanın Nikol Paşinyanın Qarabağı Ermənistanın "tərkib hissəsi" elan edən bəyanatını tənqid etməsinə cavabı bir daha təsdiqləyir.

Xatırladaq ki, ötən həftəsonu Brayza həmin bəyanatın danışıqlar prosesini tamamilə heçə endirdiyini söyləyib. Eyni zamanda əlavə edib ki, N.Paşinyan Qarabağ qruplaşmasının güclü təzyiqlərinə məruz qaldığı üçün belə danışıb. "Əslində isə Bakıda, çox yüksək səviyyədə mənə deyiblər ki, Paşinyan Azərbaycanla danışıqları axıradək aparmağa hazır olduğunu bildirib", - deyə Brayza Gürcüstanda yayımlanan internet televiziyasına müsahibəsində bildirmişdi.

**Paşinyan bu xüsusda öncə yada salıb ki, avqustun 5-də onun Xankəndində səsləndirdiyi "Qarabağ Ermənistandır, nöqtə" bəyanatı şərhlər qasırğasına məruz qalıb (virtualaz.org):** "Lakin hələ əvvəl, mart ayında mən demişdim ki, "Madrid prinsipləri"nin nələri nəzərdə tutduğu ətraflı aydınlaşdırılsın, o cümlədən statusa dair bu prinsiplərin hansı imkanlar yaratdığı göstərilsin. Yalnız bundan sonra deyə bilərik ki, həmin prinsiplər qəbuledilən-dir, ya yox. İstənilən həll Ermənistan, Qarabağ və Azərbaycan üçün məqbul olmalıdır. Mən Ermənistanın ilk başçısıyam ki, həllin Azərbaycan xalqı üçün də məqbul olması haqda danışmışam. Biz gözləyirik ki, Azərbaycan da belə cavab verəcək. Hələlik bu yoxdur. Əksinə, onların yanaşması maksimalistdir. Hərçənd Minsk Qrupunun işçi müzakirələrində statusun müxtəlif ola biləcəyi göstərilir - o cümlədən Azərbaycandan kənarda. Azərbaycan deyir ki, həll ancaq onun ərazi bütövlüyü çərçivəsində mümkündür. Lakin əgər onların mövqeyi belə qətidirsə, o zaman bizim prinsip də "Qarabağ Ermənistandır, nöqtə" olacaq".

*****

Diqqət edildi yəqin, Azərbaycanın problemin həllini ərazi bütövlüyü prinsipi çərçivəsində görməsini N.Paşinyan maksimalist, qəbuledilməz mövqe hesab edir. Halbuki belə yanaşma, sadəcə, beynəlxalq normalardan qaynaqlanır: ölkəmiz bütün beynəlxalq təşkilatlara, o cümlədən BMT və ATƏT-ə Dağlıq Qarabağla birgə üzv olub. Azərbaycan prezidenti İlham Əliyev də məhz bu reallıqlardan, beynəlxalq hüquqdan çıxış edərək dəfələrlə bəyan edib ki, danışıqlarda Azərbaycanın suverenliyi və ərazi bütövlüyü heç vaxt müzakirə mövzusu olmayıb, olmayacaq. Bu mənada "Dağlıq Qarabağ Azərbaycanındır, nöqtə" bəyanatında qeyri-adi, Paşinyanın həyasızcasına iddia etdiyi kimi, maksimalist heç nə yoxdur.

Maksimalizm məhz "Qarabağ Ermənistanındır. Nöqtə" bəyanatıdır. Çünki Dağlıq Qarabağ beynəlxalq qanunlara və sənədlərə görə, məhz Ermənistan tərəfindən işğal olunub və bu fakt dünya tərəfindən, BMT, ATƏT, AŞ PA, NATO, İslam Əməkdaşlıq Təşkilatı tərəfindən təsdiqlənib. Başqa sözlə, Ermənistan işğalçı kimi qəbul edilir. İşğalçı isə müharibənin müvəqqəti nəticələrindən çıxış edib şərtlər diktə edə bilməz - illah da müharibə hələ bitməyibsə.

Erməni baş nazirin sözlərindən isə belə çıxır ki, Dağlıq Qarabağ artıq beynəlxalq birliyin qəbul elədiyi mübahisəli ərazidir və Azərbaycan da bu reallıqdan çıxış eləməlidir. Yəni İrəvanın xəstə məntiqinə əsasən, Azərbaycan o halda konstruktiv sayılacaq ki, yekun sülh sazişinədək Dağlıq Qarabağı öz qanuni ərazisi saymasın, bu haqda hər hansı bəyanat verməsin, Dağlıq Qarabağın yekun statusu da referendumla həll olunsun - hansı referendum ki, Azərbaycan Konstitusiyasına tamamilə ziddir.

Qısası, tipik erməni hiyləgərliyi yəni. Bu, eyni zamanda işğalçı ölkənin özünü dünyanın gözündə növbəti dəfə sülhpərvər kimi göstərmək, Azərbaycanın guya sülh anlaşmasında maraqlı olmadığını nümayiş etdirmək cəhdidir ki var - xüsusən də Paşinyanın ABŞ səfəri öncəsi.

Belə çıxır ki, Bakı "Qarabağ Azərbaycanın deyil, nöqtə" deməlidir ki, erməni tərəfin gözündə konstruktiv görünək? Bəs o zaman Paşinyanın "Konfliktin həlli Azərbaycanı da qane eləməlidir" bəyanatı necə olsun? Əgər konflikt ölkəmizin ərazi bütövlüyü çərçivəsindən kənarda çözüləcəksə, Azərbaycanın maraqları necə təmin olunacaq görəsən? Ümumiyyətlə, Bakı o halda erməni tərəfi ilə nəyi müzakirə edəcək?

Məsələ də bundadır: münaqişənin həlli Azərbaycanın ərazi bütövlüyü çərçivəsində görülür, yoxsa yox? Görülmürsə, deməli, sülh anlaşması müharibənin nəticələri əsasında təsəvvür edilir. O halda İrəvanla danışıqlara vaxt itirməyə dəyməz və yeni müharibəni gözləmək lazımdır.

*****

Yeri gəlmişkən, dünən Elmar Məmmədyarov Müqəddəs Taxt-Taca rəsmi səfəri çərçivəsində dövlət katibi Pietro Parolinlə görüşüb və qarşı tərəfi Qarabağ münaqişəsinin həlli prosesinin hazırkı vəziyyəti barədə məlumatlandırıb, Ermənistan rəhbərliyinin məsuliyyətsiz davranışının bölgədə gərginliyin artmasına xidmət etdiyini bildirib.

Öz növbəsində Bakıda səfərdə olan Türkiyənin vitse-prezidenti Fuat Oktay Azərbaycan-Türkiyə Biznes Forumunda çıxışı zamanı Nikol Paşinyanın son sərsəm bəyanatlarını pisləyib, Qarabağ məsələsində qardaş ölkənin daim Azərbaycanın yanında olduğunu bəyan edib.

**F. Oktay deyib ki, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli, 1 milyon azərbaycanlının öz torpaqlarına qayıtması ən böyük arzularıdır.** "Ermənistan baş nazirinin Dağlıq Qarabağın Ermənistana aid olması barədə bəyanatını da təəccüblə qarşılayırıq. Bu cür bəyanatlara beynəlxalq ictimaiyyətin biganə qalmaması lazımdır. Türkiyə buna səssiz qalmayıb və qalmayacaq. Azərbaycan torpaqları üzərindən işğalın qaldırılması üçün həmrəyliyimizi davam etdiririk", - deyə o vurğulayıb.

Bunu Türkiyənin işğalçı tərəfə daha bir ciddi xəbərdarlığı da saymaq olar..





# Bu gün ATƏT təmas xəttində monitorinq keçirəcək

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 18-də Füzuli rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır. Bu barədə Musavat.com-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndənin səhra köməkçiləri Saymon Tiller və Martin Şuster keçirəcəklər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç keçirəcəklər.

YENİ MÜSAVAT
N 192 (7362) 18 sentyabr 2019

# Putin silah ticarətindən milyardlar qazanır

## Rusiya isə silah bazarında Britaniyanı sıxışdıraraq, ikinci yerə sahib olub və illik gəliri 40 milyard dollara qədər yüksəlib...

**Rusiya prezidenti Vladimir Putin Səudiyyə Ərəbistanının neft obyektlərinə sentyabrın 13-dən 14-nə keçən gecə edilən dron hücumları fonunda bu ölkəyə S-400 və ya S-300 zenit raket kompleksləri sistemlərini almağı təklif edib.**

Səudiyyə Ərəbistanında neft zavodlarına edilən hücumla bağlı suala cavab verən Rusiya prezidenti müqəddəs Qurani-Kərimdən sitat gətirib: “Müqəddəs Quranda öz ailəni qorumaqdan başqa, hər cür zorakılığın qəbuledilməzliyindən danışılır. Ona görə də öz ailəsini, ölkəsini qorumaq üçün biz Səudiyyə Ərəbistanına müvafiq yardımı göstərməyə hazırıq”.

**Onun sözlərinə görə, Səudiyyə rəhbərliyi müdrik dövlət qərarı vermək üçün yetərlidir ki, İran kimi S-300 və ya Türkiyə hakimiyyəti kimi S-400 alsın:** “Bu silahlar Səudiyyə Ərəbistanın hər hansı infranstruktur obyektini etibarlı qoruyacaq”.

**Politoloq Əhəd Məmmədli:** “Səudiyyə Ərəbistanının düşdüyü çətin vəziyyətdən Rusiya maksimum istifadə edib, həm silahlarını bu ölkəyə satmaq istəyir, həm də çalışır ki, ərəblər onlara husilərlə bağlı xahiş-minnət etsinlər. Xahiş-minnət isə ondan ibarətdir ki, Rusiya İrana söyləsin ki, satelliti husilərin Ərəbistan neft buruqlarına, gəmilərinə, aerodomlarına hücumlarını dayandırsın. Belə



olan halda ərəb küçəsində Moskvanın avtoriteti SSRİ dövrlərində olduğu kimi birə-beş artacaq. Kreml də bunu bilməmiş deyil. Ona görə də fürsətdən maksimum istifadə edir. Putinin Quran ayəsindən sitatlar söyləməsi əsasən Ərdoğana edilən bir jest idi. Rusiyanın dünyaya qaz, neft və araqdan sonra əsas ixracı silah satışıdır. Burada təəccüblü heç nə yoxdur. Rusların ən gözəl bacardığı iş araq içmək və silah satmaqdır. Və onlar üçün maraqlı deyil ki, silahı kimə satırlar. Silah satışı ilə Rusiya Səudiyyədən həm maliyyə əldə etmək, həm də yeni bazara çıxmaq istəyir. Bunun siyasi tərəflərini də yuxarıda qeyd etdim. S-300 və S-400 raket komplekslərini Kreml daha geniş areala təqdim etmək istəyir. Bunun üçün də Səudiyyədən yağlı müştəri tapmaq çətindir. Yəni Putinin S-300 və S-400 mesajının həm siyasi, həm də ticari çalarları var. Həm də Putin bununla Amerikaya acıq vermək və zərbə vurmaq istəyir. Türkiyədən sonra Səudiyyə də Rusiyadan S-400 alsa, bu, Moskvanın Vaşinqton üzərində növbəti uğuru olacaq. Putin də bunu istəyir. Bunun həyata keçməsi üçün də husilər və İrandan Riyada qarşı təzyiq formasında istifadə edir. Düzdür, husilərə Səudiyyəni vuran raketləri İranın və ya Amerikanın verməsi artıq başqa mövzunun söhbətidir”.

**Beynəlxalq münasibətlər üzrə şərhçi Əziz Əlibəyli gedən ssenarilərdən söz açdı:** “Bu bizə başqa bir oxşar ssenarini xatırladır. Türkiyənin Suriyada hərbi əməliyyatlara başlamasından sonra iki fərqli cəbhədəki ölkə bu gün ən yaxın hərbi müttəfiq oldu, yəni Türkiyə və Rusiya. Yekunda Türkiyə tamamilə də olmasa, böyük bir miqyasda NATO-dan, ABŞ-dan qopdu və S-400-lər aldı. Artıq Akkuyu Atom Stansiyası bitmək üzrədir. Eyni ssenari Səudiyyədə də gedə bilər və Rusiya bunu çox istəyir, həm OPEK nəzərindən, həm ABŞ-ın müttəfiqi kimi, həm də Yaxın Şərqdəki gücü əldə etmək kimi... Əsas sual budur ki, bəs Səudiyyə özü bunu istəyirmi? İkinci sual isə budur ki, niyə məhz indi belə bir təklif? Hamımız bilirik ki, Səudiyyəni çıxılmaz duruma salan husi şiələridir. Yəmən cəbhəsini İran, onu isə Rusiya idarə edir. Özü də Səudiyyəni ürəyindən, yəni neft sahəsindən vurmaları da Rusiyanın çoxtərəfli gedişidir və bu qambiti Qurandan sitat gətirib. Tamamlamasında da məntiq odur ki, artıq Kral ailəsi seçim etməlidir. Putin əyani olaraq hadisələr üzərindən Səudiyyəyə-dilemma qarşısındakı rejimə elə sözün hər mənasında "ayı xidməti" göstərir. Rusiya dünya silah bazarında hər il payını artırır. 100 silah firmasının 57-si ABŞ-a aiddir. 2017-ci ildə 226 milyard dollar gəlir əldə edib. Rusiya isə silah bazarında müvafiq ildə Britaniyanı sıxışdıraraq, ikinci yerə sahib oldu və illik gəliri 40 milyard dollara qədər yüksəldi. Rusiyanın Səudiyyəyə yönəlik silah satışının arxa məqsədi ona silah sataraq asılı vəziyyətə salmaq, müttəfiqi ABŞ-dan uzaqlaşdırmaq və bölgəyə - neft səltənətinə yerləşməkdir".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Ankara sammiti Suriyanın taleyini həll etdi?

## Türkiyə Suriya məsələsində qərar verən, ölkənin gələcəyini təyin edən ölkə statusuna keçir...

**Sentyabrın 16-da Ankarada Türkiyə, İran və Rusiya prezidentlərinin iştirakı ilə sayca 5-ci Suriya sammiti keçirilib. Prezidentlər Ərdoğan, Putin və Ruhaninin gündəmində Suriya ilə bağlı 4 əsas olub: İdlibdə vəziyyət, Fəratın şərq sahili və kürd məsələsi, qaçqınlar, nəhayət, Suriyada yeni keçid konstitusiyasını hazırlayacaq komissiyanın tərkibinin razılaşdırılması.**

İlk növbədə prezidentlər 18 aydır müzakirələrin davam etdiyi konstitusiya komissiyasının tərkibini razılaşdırıblar. BBC-nin Ankara görüşü ilə bağlı şərhində bildirilir ki, bu görüşdə daha çox Putin və Ərdoğanın mövqelərinin uzlaşması diqqət çəkib. Lakin eyni zamanda analitiklər Ankara sammitində ciddi nəticələrin əldə olunmadığını qeyd edir.

Qeyd edək ki, Rusiya, Türkiyə və İran prezidentlərinin Suriya sammiti formatında görüşləri 2017-ci ildən başlayıb. Astana və daha sonra davam edən Soçi formatının möhkəmlənməsinə xidmət edən görüşlər Suriyanın taleyinin həll olunması ilə bağlı ciddi qərarlarla yadda qalıb.

Bilindiyi kimi, hazırda əsas problemli mövzu İdlibdə atəşkəsin davam etməsi və buradakı toqquşmaların başa çatması, Suriyanın şimalında Türkiyə və ABŞ-ın yaratmağa çalışdığı təhlükəsizlik zolağı,



qaçqınlar və konstitusiya şurasının yaradılması sona çatmaqda olan Suriya münaqişəsinin son mərhələsidir.

Ankara sammitinin əsas mövzusu ilk olaraq Konstitusiya Komissiyasının yaradılması ilə bağlı razılıq olub. Təbii ki, əsas razılaşma Rusiya və Türkiyə arasında olub. Çünki Türkiyə tərkibdəki PYD nümayəndəsinə etiraz edirdi. Məlum olduğu kimi, BMT TŞ-nin 2254 saylı qərarına əsasən Suriyada siyasi həll üçün Konstitusiya Komissiyası qurulmalıdır. 150 nəfərdən ibarət olacaq komissiyaya 50 hökumət, 50 müxalifət və müstəqil şəxslərdən ibarət 50 vətəndaş cəmiyyəti qrupu təmsil olunacaq. 150 nəfərlik qrupun içərisindən hər qrupdan 15 nəfər olmaqla 45 nəfərlik konstitusiya hazırlayacaq heyət seçiləcək. Yeni konstitusiya hazırlandıqdan sonra isə azad və ədalətli seçkilər keçiriləcək, hökumət formalaşacaq.

Ancaq məsələ ondadır ki, hakimiyyət və müxalifət qrupu razılaşdırılsa da, müstəqil qrupu razı salmaq mümkün olmurdu və buna görə proses 18 aya qədər uzandı. Ən son olaraq ötən ilin dekabrında qurulmalı olan komissiya razılaşdırılmadı. Artıq bu mərhələ başa çatıb və plana əsasən BMT Baş Assambleyası toplantısında heyət elan ediləcək. Türkiyə Suriyadakı siyasi keçid prosesinin BMT və Qərb ölkələrinin də iştirakı ilə baş tutmasını dəstəkləyir.

Ancaq İdlib mövzusunda Ankara görüşündən ciddi bir nəticə hasil olmayıb. Sammitdən əvvəl Ərdoğan bildirib ki, Türkiyə silahlı qüvvələri İdlibdəki müşahidə məntəqələrindən çıxmayacaq. Türkiyə İdlibdə yeni toqquşmaların olmamasını istəyir. Ankara hesab edir ki, İdlibdə 3,5 milyon suriyalı toqquşmalar başlayacağı təqdirdə Türkiyəyə axın edəcək.

Türkiyədən fərqli olaraq Rusiya İdlibdə antiterror əməliyyatlarının davam etməsini dəstəkləyir. Putin Ankarada deyib ki, Suriya ordusu İdlibdə terrorçulara qarşı əməliyyatlar aparır, Rusiya qüvvələri bu əməliyyatlara dəstək verir. Bu isə bir mənada Rusiya və Türkiyə arasında İdlib mövzusunda fikir ayrılığının qaldığını göstərir. Diplomatik mənbələr Rusiya və Suriya hakimiyyətinin Türkiyədən ordusunu İdlibdən geri çəkməsini istədiyini, ancaq Ankaranın bu səbəblərə görə imtina etdiyini qeyd edir. Ankara sammitinin yekun bəyannaməsində tərəflər 2018-ci il 17 sentyabr Soçi anlaşmasına bağlı olduqları, eyni zamanda “Təhrir əş-Şam” qruplaşmasının İdlibdə güclənməsindən narahatlıq vurğulanır.

Rusiya İdlibin son bir ildə böyük bir hissəsinin terrorçu kimi tanınan qrupların nəzarətinə keçdiyini, bu səbəbdən də Rusiyanın İdlibdə əməliyyatlara dəstək verdiyini qeyd edir. Bu mənada İdlib məsələsinin indiki halda hər iki tərəfin maraqlarına cavab verən həll yolu bu vilayətdə atəşkəsin qorunub saxlanmasıdır. Ancaq Rusiya və Suriyanın buna o qədər də isti yanaşmadığı aydındır.

Suriya-Türkiyə sərhədində “təhlükəsizlik zolağı” yaradılması ilə bağlı vəziyyətə gəldikdə, Ərdoğan bunu “YPG-yə qarşı əməliyyat” adlandırıb. Eyni zamanda Ərdoğan deyib ki, ABŞ Ankaranın tələblərini yerinə yetirməyəcəyi təqdirdə Türkiyə ordusu 2 həftə ərzində Türkiyənin Suriya ilə digər sərhəd xəttinin digər hissəsini də nəzarətə götürəcək. Türkiyə prezidenti YPG-ni Suriyanın ərazi bütövlüyünə ən böyük təhdid adlandırıb.

Yeri gəlmişkən, Ankara zirvəsi zamanı Putin və Ərdoğan arasında 1,5 saat davam edən görüş olub. Ümumilikdə isə liderlər yaxşı ovqatda olublar. Bu isə bəzi qənaətlərin doğmasına səbəb olur. İlk növbədə belə məlum olur ki, Konstitusiya Komissiyası ilə yanaşı, liderlər ən azı yaxın dövr üçün İdlibdə atəşkəsin davam etməsini razılaşdırıblar. Kürd məsələsində Putin Ərdoğana dəstək verib. Yeri gəlmişkən, Putin ötən ayın 25-də Ərdoğanın Moskva səfəri zamanı da Suriyanın ərazi bütövlüyünə vurğu edib. Bundan başqa, liderlər Yaxın Şərqdəki gərginliklə bağlı demək olar ki, yaxın mövqe sərgiləyiblər və kəskin fikir ayrılıqları olmayıb. Bu mənada Suriya məsələsində təşəbbüsü ələ almış 3 ölkə liderinin Suriyanın gələcək taleyi ilə bağlı əsas qərar orqanına çevrilmənin zövqünü yaşayıblar. Belə demək olarsa, 3 ölkə Suriyanın gələcək taleyini təyin ediblər. İlk növbədə Ankara artıq Suriya məsələsində qərar verən, ölkənin gələcəyini təyin edən ölkə statusuna keçir. Bu, Ankara üçün ciddi irəliləyişdir. Maraqlıdır ki, Türkiyənin məşhur yazarı, hakimiyyətə yaxın jurnalist Fatih Altaylı “Haber Türk” qəzetində yazdığı məqaləsində “Yaxın Şərqdə bizə ən uyğun siyasi lider Bəşər Əsəddir” yazıb. Altaylı iqtidar mətbəxinə yaxın şəxsdir. Bu yazı həm də hakimiyyətin Suriya ilə barışmağa hazırlaşdığını göstərir. Bu, ən azından yaxın iki ildə Suriyada ciddi siyasi dəyişikliklərin olacağını göstərir.

❑ **Kənan RÖVŞƏNOĞLU, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 192 (7362) 18 sentyabr 2019

# Nobeli və Rokfelleri varlandıran Balaxanı...

## Balaxanıdakı Nobel məhəlləsinin adının qaytarılması təşəbbüsü var; turist marşrutunun qəsəbədən salınması tarixi abidələri "ölümdən" xilas edib




**Azərbaycanı dünyaya tanıdan ünvanlarından birindəyik. Bakının Balaxanı qəsəbəsi tariximizin bir parçası, parlaq səhifələrinin yazıldığı məkanlardandır. Hazırda Balaxanıda 2 əsas küçədə - Səfəvilər və Dirçəliş küçələrində təmir işləri aparılır, tarixi abidələri ziyarət etmək istəyən turistlərin gəlişinə uyğun şəklə salınır. Qədimi məhəllə plan-forması qorunmaqla Balaxanı küçələrində divarların bərpası, yolların yenilənməsi həyata keçirilir.**

(əvvəli ötən saylarımızda)

**Qəsəbə sakini, bu yerlərin tarixi ilə bağlı arxivlərdə araşdırmalar aparmış Bəxtiyar İsrafilov Balaxanıda əhalinin sayı ilə bağlı maraqlı məlumatlar əldə edib:** "1823-cü ildə çar Rusiyası əhalinin siyahıya alınmasını həyata keçirib. Arxiv sənədlərindən belə aydın olur ki, o dövrdə Balaxanıda cəmi 280 nəfər yaşayıb. 1900-cü ildə bu rəqəm artıq 2 min nəfərə yaxın, yerlilər 1200 nəfərə yaxın, yerdə qalanları isə gəlmələr olub. Arxiv sənədlərində gəlmələr adı altında əsasən yəhudilər, mordvalar, ruslar, tatarlar və digər xalqların nümayəndələri qeyd edilib. 1890-cı illərdən başlayan neft bumu Balaxanını sürətlə sənaye mərkəzinə çevirib. Zavodlar, fabriklər, mədrəsələr, məscidlər, 2-3 mərtəbəli yaşayış binaları, Bakı kəndləri arasında ilk kilsə, Nobel qardaşlarının, Rokfeller, Rotşildələrin idarə binaları, kəndin əsas hissələrində qırmızı suvaqlı evlər, Balaxanı camaatının "mostovoy" adlandırdıqları qəmbər döşəməli yollar salınıb. Sonrakı illərdə, 1910-cu ildə tanınmış Azərbaycan şairi Mirzə Ələkbər Sabir Balaxanıdakı məktəbdə dərs deyib. Balaxanıda Nobel adlanan ayrıca məhəllə olub. Sovet dövründə Nobel adını Artyoma dəyişiblər. Bu gün də ərazi sovetdən-qalma adı ilə tanınır. Yaxşı olardı ki, həmin məhəlləyə yenidən köhnə adı verilsin. Orada Nobellərə məxsus olmuş və işçilərin yaşaması üçün inşa olunan 2 mərtəbəli binalar da əvvəlki görkəminə qaytarılsın. Balaxanıdakı kilsə də həmin Nobel məhəlləsinin yaxınlığında, Nobellərin idarə binası arxasında yerləşib. Kilsə bu gün Cahangir Cahangirovun adını daşıyan 4 saylı məktəbin arxasındakı ərazidə olub. Sovet hakimiyyətinin ilk illərində kilsə də, Balaxanıdakı bir neçə məscid də dağıdılıb. Buna etiraz edən yerli sakinlər isə həbsə alınıblar. Bu gün dünyaca məşhur olan Nobellərin, Rotşildlərin, Rokfellerlərin dirçəlməsində Balaxanının özəl rolu var. Onlar Bakıda, özəlliklə Balaxanıda çox böyük pullar, varidat qazanıblar".

**Bəxtiyar İsrafilovun sözlərinə görə, arxiv sənədlərində Nobel qardaşlarının Balaxanı ərazisində 200-ə yaxın neft buruğu olması haqda qeydlər var:** "Bu, o dövr üçün çox böyük rəqəmdir. Müqayisə üçün deyim ki, Nobel qardaşları ilə eyni dövrdə yaşamış balaxanılı messenant Əlibaxış Qədimovun o dövrdə cəmi 2 buruğu olub. Söhbət buruqdan gedir, neft quyuları olan çoxlu şəxslər olub. Qardaşları ilə neft kampaniyası yaradan Əlibaxış Qədimov Balaxanı camaatı tərəfindən daha çox Kampan adı ilə tanınıb. Bu adla o, kampaniya yaratmasından sonra məşhurlaşıb. Kampanın o dövrdə cəmi 2 neft buruğu və çoxsaylı neft quyuları olub. Buruq, buruqda tətbiq olunan avadanlıqlar o dövlər üçün çox böyük xərclərə başa gəlib. Neft quyuları isə Balaxanıda saysız-hesabsız olub. Kampan Qədimovun əliaçıqlığı haqda bu gün də əfsanələr dolaşır. Bir məqamı da qeyd edim ki, 1823-cü ildəki siyahıya almada təkcə Balaxanıda deyil, ətraf kəndlərin əksəriyyətində də əhalinin sayı təxminən 200-300 nəfər arası olub".

Balaxanının ən hündür nöqtəsində yerləşən "Hacı Şəhla" məscidi ilə Şakir ağa türbəsi qonşuluqdadır. "Yeni Müsavat" oxucularına 2017-ci ilin aprelində "Hacı Şəhla" məscidinin ürəkparçalayan durumu əks olunan reportaj təqdim etmişdik. Bu gün isə məscid tam bərpa olunub və yerli sakinlərin ixtiyarına verilib. Tarixi abidələrin yerləşdiyi qəbiristanlıq tam abadlaşdırılıb. Tarixi məscidlə türbənin yerləşdiyi bu ərazilərdən qəsəbəni əhatələyən qonşu kəndlər - Ramana, Sabunçu, Zabrat, Məhəmmədi, Digah aydın sezilir. Ramana qalası, Maştağa məscidi, gözü bir qədər iti olanlar isə Bilgəh, Kürdəxanı, Pirşağı, Binəqədini görə bilirlər. Hər iki tarixi abidə Şirvanşahlar dövrünə aiddir, 1380-90-cı illərdə inşa olunub. Abidələrin Şirvanşah I İbrahimin əmri ilə tikilməsi haqda məlumatlar var. Balaxanı qəbiristanlığında yerləşən Şakir Ağa türbəsi 1427-1428-ci ildə tikilib və 1385-1386-cı ildə tikilən "Hacı Şəhla" məscidindən 6 metr məsafədədir. Şakir Ağa türbəsi memarlıq baxımından Balaxanı abidələrinin ən qiymətlisi hesab olunur. Balaxanı camaatı buranı daha çox imarət adlandırıblar. Türbənin tağlı giriş qapısının üstündə ərəbcə 2 sətirlik kitabə var ki, mətni belə oxunur: "Bu imarətin tikilməsinə millət və din böyüklərinin hamısı Miriraxur Şakir ağa ibn mərhum Mürtəza əmr etmişdir. Hicri təqvimi ilə səkkiz yüz otuz birinci il".

Şirvanşahlar dövrü Balaxanının tarixində mühüm zaman kəsiyi olub. I İbrahim 1382-1417-ci illərdə hakimiyətdə olub. O dövrdə şahlığın ərazisi İrandan Dərbəndə qədər uzanıb. Həmin zamanlarda şahlıq ərazisində, o cümlədən Balaxanıda böyük abadlıq işləri gedib. Şakir Ağa balaxanılı olub. O, Şirvanşahlar sarayında böyük mənsəb sahibi, təcrübəli vəzirlərdən biri kimi ad-san qazanıb. Onun şah sarayındakı statusu indiki dövrün vəzifə bölgüsünə uyğun söyləsək, təxminən iqtisadiyyat naziri postuna uyğun gəlir. Şakir Ağa vəfat etdikdən sonra özü də, onun ailə üzvləri də bu türbədə dəfn ediliblər".

Bu gün Balaxanı qəsəbəsinin mərkəzinin bir addımlığında Şah Səfi karvansarayı da restavrasiya olunmaqdadır. Karvansaray 1635-36-cı ildə usta Bürhan və sərkar Behbud tərəfindən inşa edilib. Onun inşasına Əlihüseyn Bahadirxan şah Səfiəddin - xalq arasında Səfi kimi tanınan şah əmr edib. Karvansaray sovet dənəmində anbar, müstəqilliyin ilk illərində isə restoran kimi istifadə olunub. 20 metr uzunu, 7 metr eni olan karvansaray tağ tavanlı, düzbucaqlı şəklindədir. Balaxanılılar karvansarayı daha çox "Xacə Ruhulla" imarəti adlandırır. Abidənin çatma tağlı taxta qapısı üzərində vaxtilə kitabə olub.

**Bəxtiyar İsrafilov deyir ki, həmin kitabə ötən əsrin 60-70-ci illərində karvansarayda aparılan restavrasiya işləri zamanı sıradan çıxarılıb:** "O dövrlərdə restavrasiya işlərini daha çox ermənilər aparırdı. Kitabə də onların fəaliyyətindən sonra yoxa çıxıb. Ümumiyyətlə, abidənin restavrasiyası adı ilə dağılmasına səbəb olan hərəkətlərə yol verilib".

**Bəxtiyar İsrafilov deyir ki, karvansaray qapısı üzərindən daş kitabə qəsd nəticəsində çıxarılsa da, kitabənin fotoları Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun elmi arxivində "Şah Səfi karvansarayı" adı altında 68-14 saylı invertar kimi saxlanılır:** "Karvansarayın məhz Balaxanı ərazisində yerləşməsi Böyük İpək Yolunun bu yerdən gəlib keçdiyinə bir sübutdur. Tacirlər məhz bu karvansarayda qalırdı, karvanlardakı dəvələr, atlar üçün tikilinin yaxınlığında böyük ərazidə bağ olub. Ermənilərin restavrasiya zamanı yoxa çıxardıqları kitabənin məğzi haqda məlumat belədir: - **Bu binanı inşa etməyi əmr etdi. Əzəmətli sultanım, şöhrətli şahanşahımızın hakimiyyəti günlərində:**

**Şah Səfi əd-Din-əl-Hüseyn, əl-Bahadır - Xan tanınmış Haca Ruhullanın dayağı: Mövlanə Hikmət Allah Badu-Kubeyi, Rəcəb ayı - min qırx beşinci Hicri ilində, ustad - Burhan, Sərkar Behdud düzəldib.**

Bir məqamı da qeyd edim ki, mənbələrdə kəndin cənubundakı "Boq-boqi" adlanan yerin yaxınlığında vaxtilə Suraxanı atəşgahına bənzər abidə olub. Kəndin cənub hissəsindəki köhnə qəbiristanlıqda "Pirə Moulo" piri, kəndin ortasındakı böyük tut ağacının yanında olan "Sənqıran" piri olub".







**Bəxtiyar İsrafilov deyir ki, əsrlərdən süzülüb bu günümüzə gəlib çatan tarixi abidələrin restavrasiyası olunması, qəsəbə küçələrinə yeni görkəm verilməsi, turist marşrutlarının Balaxanı ərazisindən salınması ümumilikdə tariximizə verilən töhfədir:** "Bu işdə əməyi keçən hər kəsə təşəkkür edirik".

**❑ Elşən MƏMMƏDƏLİYEV,**
**Fotolar Elçin ƏKBƏROV**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 192 (7362) 18 sentyabr 2019

# Rusiyalı məmurun Naftalanda çimdiyi “şokolad vannası” haqda yeni bilgilər

Ulyanovsk vilayətinin korporasiya rəhbəri Svetlana Openışeva Azərbaycanda “şokolad vannası”ndan paylaşdığı fotoya görə müzakirələrə səbəb olub, bəs əslində...

**Rusiyalı məmurun Azərbaycandakı hotellərin birində qəbul etdiyi “şokolad vannası” artıq onun öz başına belə olmaqla yanaşı, Rusiya mətbuatda da ən çox müzakirə olunan mövzuya çevrilib. Belə ki, Ulyanovsk vilayətinin İT-korporasiyasının rəhbəri Svetlana Openışeva Azərbaycanda “şokolad vannası”ndan paylaşdığı fotoya görə müzakirələrə səbəb olub.**




O, Naftalandakı beşulduzlu hotellərin birində müalicə məqsədli şokolad rəngində maye ilə dolu vannadan çəkdirdiyi “selfie”ni instaqram hesabında paylaşaraq “Çox şokolad olmur” şərhini yazıb. Məmurun bu paylaşımı əksər izləyici tərəfindən tənqid olunub. Baş vermiş qalmaqal fonunda Ulyanovskun qubernatoru Sergey Morozov açıqlama verib. O, Openışeva barəsində xidməti araşdırma aparmağa dair tapşırıq verdiyini, onun lüks həyatı nümayiş etdirdiyinə görə işdən çıxarıla biləcəyini bəyan edib.

İnsanları maraqlandıran əsas məsələ isə odur ki, Azərbaycanda hotel və istirahət mərkəzlərində, müalicəvi kurort yerlərində “şokolad vannası” varmı?

Bu sualla bağlı Svetlana Openışevanın paylaşımında tag etdiyi, Naftalan rayonunda yerləşən hotellə əlaqə saxladıq. Qeyd edək ki, müalicəvi məqsədlə hoteldə minimum 7 günlük bir paket təqdim olunur. 2 nəfərlik paketin 1 günlük qiyməti 219 manatdır. Bu bir həftəyə 1633 manat deməkdir. Paketə gündə 3 dəfə qidalanma, SPA xidməti, çek-up, konsultasiya, Naftalan vannası, fizioterapiya, nastovit yaxması, inqalyasiya, fito çaylar, hidromasaj daxildir.

“Şokolad vannası”nın olmasına gəlincə, əlaqə saxladığımız hotel nümayəndəsi bunu inkar etmədi. Bildirdi ki, əvvəllər “şokolad vannası” olub, ancaq hazırda bu xidmət yoxdur. Ancaq burada vannanın tamamilə şokoladdan ibarət olduğunu demək olmaz, sadəcə, müəyyən qədər var. Lakin dəri üçün şokolad maskası təklif edilir ki, bunun da qiyməti 40 manatdır. Həmçinin paketdən əlavə aromatik vannalar da müştərilərə təklif edilir, 1 proseduru 20 manatdır. O cümlədən yod-brom vannaları, duz vannaları, slon tərkibli vannalar var. Həkimlərin müayinəsindən sonra Naftalan nefti əks göstəriş olan pasientlər bu vannalardan istifadə edə bilərlər.

Lakin ən çox istifadə olunan və elə görünüşcə şokolad vannasına bənzəyən Naftalan nefti digər karbohidrogenlərdən fərqli olaraq cavan bir strukturdur, Naftalan şəhərində yerin təkindən çıxarılır. Karbohidrogen quruluşu tamam fərqlidir, ağırdır, yanma ehtimalı çox aşağıdır. Onun parçalanması və yanması üçün çox yüksək temperatur lazımdır. Bizim daxili orqanlarımızda olan hormonlar, vitaminlər pentan quruluşa malikdirlər, beşbucaqlı şəkildədirlər. Naftalan neftinin quruluşu da eynidir. Faydalı olmasının bir sirri də bu sayılır. Naftalan neftinin həm xarici, həm də daxili təsirləri var. Xaricdən 6 cür təsiri var: dəri toxumasına kimyəvi təsirləri, reflektor təsirləri, temperatur təsiri və sair. Naftalan nefti dərinin toxumasından orqanizmə daxil olur. Limfa sistemi ilə qoşulur, bizim maddələr mübadiləsindən tutmuş hormonal proseslərə qədər təsir göstərir. Orqanizmin tənzimlənməsində, ağır metalların orqanizmdən çıxarılmasında Naftalanın faydası sonsuzdur. Orqanizmə lazım olan mikroelementləri yerləşdirir, hansı lazımsızdırsa, onu orqanizmdən çıxarır. Məsələn, orqanizmə çoxlu yod lazımdırsa, onu yığır, sink lazımdırsa, onu yığır. Təbiiliyi ondadır ki, hər orqanizmə uyğun olaraq həmin maddələrin miqdarını özü tənzimləyir. İnsanlar kimyəvi dərmanlardan daha çox bu cür təbii müalicə vasitələrinə üstünlük verirlər. Çünki bu kimyəvi dərmanlar orqanizmə yad maddələrdir, orqanizm onu qəbul etmək istəmir, öz saflığını qorumaq istəyir. Bu mənada Naftalan nefti səhiyyədə yayılmaq üzrədir.





Svetlana Openışeva

Lakin Naftalan nefti ilə bağlı əks göstəriş də ola bilər. Bu səbəbdən Naftalan klinikalarına, istirahət mərkəzlərinə gedən hər bir pasient öncədən çek-up müayinələrdən keçirilir, həkimlər tərəfindən konsultasiya edilir. Naftalan neftinin əks təsiri yüksək temperatur formasında ortaya çıxır. Qaraciyər xəstəliklərində, kəskin hepatitlərdə, qan xəstəliklərinin kəskin mərhələsində əks göstərişdir. Heç bir xəstəliyin kəskin mərhələsində Naftalan tətbiq edilmir. Hətta revmatizm xəstəliyinin kəskin mərhələsində də tövsiyə olunmur. Yalnız klassik tibbin köməyi ilə müalicə edib prosesi söndürdükdən sonra növbəti dövrdə baş verəcək xəstəliyin kəskinləşməsinin qarşısını almaq üçün Naftalan nefti məsləhət görülə bilər. Bunu ona görə xüsusi qeyd edirik ki, bəzən xəstələr kəskin mərhələdə Naftalan neftinə və ya digər təbii müalicə vasitələrinə üz tutaraq, əsas müalicə mərhələsini itirmiş olurlar.

Naftalan vannası bəzi xroniki xəstəliklərdə çox effektlidir. Azərbaycanda həm də turizmin inkişafı üçün Naftalan neftini dünyaya təbliğ etmək olar. Naftalan nefti üçün minlərlə turist ölkəmizə gələ bilər. Azərbaycana gələn qonaqlar arasında Naftalanla müalicə mərkəzlərinə üz tutanlar da az deyil. Rusiyadan, MDB ölkələrindən, hətta ərəb ölkələrindən gələnlər Naftalan nefti ilə maraqlanırlar.

Qeyd edək ki, Naftalan neftini Azərbaycanda ilk dəfə neftçıxarma ilə məşğul olan ingilislər Naftalan şəhəri ərazisində tapıb istehsal etməyə başlayıblar. Bunu ilk dəfə dəri xəstəliklərində tətbiq ediblər və çox effektli olduğunu görüb bütün dünyaya yaymaq istəyiblər. Sonradan baş verən inqilablar, çevrilişlər ingilislərin Azərbaycanı tərk etməsi ilə nəticələndi və Naftalan neftinin sorağı da sovet məkanından kənara çıxa bilmədi.

Naftalan nefti sonradan qadınlarda sonsuzluğun müalicəsində, iltihabi prosesin sorulmasında əvəzolunmaz bir məlhəm kimi istifadə olunmağa başladı. Həmçinin müxtəlif mənşəli yaraların sağalmasında da Naftalan nefti çox effektli rol oynayır.

❑ **Nərgiz LİFTİYEVA, “Yeni Müsavat”**

## MTN-in dövlətə xəyanətdə təqsirləndirilən şöbə rəisi hakim qarşısında

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin dövlətə xəyanətdə təqsirləndirilən sabiq şöbə rəisi Zakir İsmayılov və onunla birgə ittiham olunan Nəzakət İsmayılovanın barələrində olan cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

Bakupost.az-ın məlumatına görə, Bakı Hərbi Məhkəməsində hakim Camal Ramazanovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib. Məhkəmə baxışı sentyabrın 25-nə təyin edilib.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) ictimai əlaqələr şöbəsinin yaydığı məlumata görə, keçmiş Milli Təhlükəsizlik Nazirliyində şöbə rəisi olmuş Zakir İsmayılov xarici xüsusi xidmət orqanları tərəfindən maddi maraq müqabilində xüsusi təxəllüs verilməklə məxfi əməkdaşlığa cəlb edilib. Zakir İsmayılov keçmiş Milli Təhlükəsizlik Nazirliyində şöbə rəisi və digər məsul vəzifələrdə işlədiyi dövrdə Azərbaycanın dövlət təhlükəsizliyi və milli maraqları zərərinə fəaliyyət göstərərək tutduğu vəzifələrə görə ona məlum olan, habelə əldə edə bildiyi əks-kəşfiyyat fəaliyyəti üzrə sənədlər, şəxsi heyət barədə və digər məxfi məlumatları, eləcə də 2015-ci ildən etibarən təqaüddə olduğu dövrdə keçmiş əlaqə və imkanlarından istifadə edərək təhlükəsizlik orqanlarında baş verən dəyişikliklər barədə məlumatları, Azərbaycan xüsusi xidmət orqanlarına qarşı kəşfiyyat işlərinin mümkün üsulları barədə təhlillərini müntəzəm olaraq xarici xüsusi xidmət orqanına təqdim etməklə dövlətə xəyanət edib.

İstintaq araşdırması zamanı Nəzakət İsmayılovanın da eyni əməlləri üzə çıxıb. Hər iki təqsirləndirilən şəxsin barəsində Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham elan edilib.

## Şübhəli 14 nəfər saxlanıldı

**Sentyabrın 16-dan 17-dək daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumat açıqlanıb.**

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 13 cinayətin üstü “isti izlər”lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalmış 10 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 26 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 12 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında 3 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 3 nəfər ölüb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 2 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 14 nəfər saxlanılıb.




# İspandilli "Qarabağ" "Sevilya"ya qarşı-bizə "əjdaha" lazım deyil...

## "Sevilya" oyunçularının sabah meydanda nə danışdıqlarını, baş məşqçi Lopeteginin nə tapşırıqlar verdiyini kimlər biləcək?

**Sabah Tofiq Bəhramov adına Respublika stadionunda Avropa Liqasının qrup mərhələsinin 1-ci turu çərçivəsində "Qarabağ" İspaniyanın "Sevilya" klubunu qonaq edəcək. Qeyd edək ki, Avropa Liqasının "A" qrupunda "Sevilya", APOEL və "Qarabağ"dan əlavə, Lüksemburq "Düdelanj"ı da yer alıb. İlk turda APOEL "Düdelanj"ı, "Qarabağ" "Sevilya"nı qəbul edəcək.**

Saat 21:00-da başlayacaq görüşü Ukrayna Futbol Federasiyasından Yeven Aranovski idarə edəcək. Ona həmyerliləri Semen Şlonçak və İhor Alokin köməklik edəcək. Sabah axşam saatlarında paytaxtımızda olacaq. İspanların sentyabrın 17-də axşam Bakıya gələcəyi gözlənilirdi.

***

Avroliqanın püşkü "Qarabağ"ı Avropa Liqasının rekord sayda qalibi olan (5 dəfə) "Sevilya" ilə rəqib edəndə ilk ağlıma gələn sual "əcəba, bu dəfə Mxitaryan problemini kim yaşadacaq" oldu. Dərhal heyətə baxdım və sevindim. Düzdür, İspaniya liqası az-az kənardan futbolçu alardı, indi bir az bu statistika artıb. Amma şükür, hələ o günə qalmayıblar ki, erməni legioner alsınlar.

Heyətə baxanda təbii ki, baş məşqçi ilə də maraqlanırsan. Baho... Xulen Lopetegi? "Sevilya"nın özü qədər məşhur bir sima... Çox da uzaq olmayan keçmişdə onun haqqındakı qalmaqalı xatırladım. Ötən il Rusiyada keçirilən dünya çempionatına bir gün qalmış İspaniya millisinin rəhbərliyindən uzaqlaşdırılan Lopetegini xatırlamamaqmı olardı?

Xulen Lopetegi "Real Sociedad"da qapıçı kimi karyerasına başlayıb. 19 yaşında isə "Real" Madridin ikinci heyətində üç sezon oynayıb. 1994-cü ildə İspaniya millisinin heyətinə düşməyi bacaran Lopetegi bir dəfə də olsun oyuna çıxmayıb. Sonra "Barselona"ya keçib. "Rayo Vallecano" klubunda isə 100 oyun keçirdikdən sonra məşqçi karyerasına başlayıb. 17 yaşlılardan ibarət İspaniya millisində baş məşqçinin köməkçisi işləyib. "Rayo Vallecano" klubunda baş məşqçilik isə uğursuz olub. Klub aşağı diviziona düşüb. Bundan sonra idman şərhçisi kimi məşhurlaşıb.

2008-ci ildə o, yenidən məşqçi kimi fəaliyyətə başlayıb. "Real"ın rezerv klubu hesab olunan "Real Madrid Castilla"nı çalışdırıb. Ən parlaq uğurunu isə İspaniyanın 19 yaşlılardan ibarət komandasında yaşayıb. Gənclər iki dəfə Avropa çempionu olublar.

Lopetegi İspaniya yığmasına 2016-cı ildən - Visente del Boskenin istefasından sonra başçılıq edirdi. Seçmə mərhələdə ispanla onun rəhbərliyi altında qruplarında birinci yeri tutaraq dünya çempionatına vəsiqə qazandılar. Lopeteginin 2020-ci ilədək yığma ilə müqaviləsi var idi. Amma məlum oldu ki, Lopetegi dünya çempionatından sonra Madridin "Real" komandasına baş məşqçisi olmağa razılıq verib. İspaniya Kral Futbol Federasiyası bu qərarı az qala xəyanət kimi qiymətləndirdi və onu istefaya göndərdi. Amma Lopetegi "Real"da yalnız bir neçə ay duruş gətirə bildi. Oktyabrda uğursuz nəticələr səbəbindən Lopetegi "Real"dan ayrılmalı oldu. Bu ilin iyun ayının 3-də isə Lopetegi "Sevilya" ilə 3 illik müqavilə imzalayıb. Lopetegi bu postda Xoakin Kaparrosu əvəzləyib. "Sevilya" La Liqada 6-cı yeri tutaraq Avropa Liqasının qrup mərhələsində iştirak hüququ qazanıb.









Lopetegi "Qarabağ" haqda danışarkən deyib ki, Bakıda komandası üçün çətin olacaq. Bundan əvvəl isə baş məşqçi "Qarabağ"ın İspaniya "Atletiko"su ilə görüşlərini yada salmışdı.

10 xalla La Liqanın lideri olan "Sevilya"nın Bakıya qələbə üçün gəldiyini demək olar. Çünki start həmişə önəmlidir və bu oyunda itirilən xal sonradan klub üçün ciddi başağrısı ola bilər. Bu səbəbdən "Sevilya"da qalib gəlmək istəyi böyükdür. "Sevilya"nın son oyunlarından birinə baxdım, klub "əjdaha" təsiri bağışlamadı. Heç bizə Bakıda "əjdaha" lazım da deyil... "Qarabağ" da asan "yem" deyil. Klubun oyunu bizi sevindirdir. "Neftçi"ilə son qarşılaşması da o ümidi verir ki, "Qarabağ" Avroliqda stabil oyun göstərə bilər. Düzdür, xətlər arasında hələ bəzi problemlər, anlaşılmazlıqlar hiss olunur. Mahir Emreli "Neftçi" ilə oyunda ötürmələr səbəbdən bir neçə dəfə emosiyasını gizlədə bilmədi.

Yadımdadır ki, dünya çempionatından sonra İslandiya millisindən alınan qapıçı haqda elə ilk oyundan xeyli tənqidlər vardı. Sonra bu tənqidlərin əbəs olmadığı təsdiqləndi və uğursuz transfer evə göndərildi. "Qarabağ"ın yeni qapıçısı bosniyalı Asmir Beqoviç "Neftçi" ilə qarşılaşmada ilk dəfə meydana çıxdı və alqışlar qazandı. Ağdam klubu 32 yaşlı qolkiperi İngiltərə Premyer Liqa təmsilçisi "Bornmut"dan ilin sonuna qədər icarəyə götürüb. İnşallah, bu qapıçı xüsusilə Avroliqanın oyunlarında "Qarabağ"a kömək edər.

**"Sevilya" haqda ispaniyalı legioner Miçel də danışıb. Deyib ki, rəqibin heyətində çoxlu dəyişiklik olsa da, bu, nəyisə dəyişmir:** "Onlar güclü olaraq qalırlar. "Sevilya" indi La Liqanın lideridir. Bu isə təsadüfi ola bilməz. Görünür, Xulen Lopeteqi komandaya fikirlərini çatdırmağı bacarıb. "Sevilya" Avropa Liqasını qazanmağa əsas namizədlərdən biri, bəlkə də elə birincisidir. Bizi çətin qarşılaşma gözləyir".

**"Sevilya"ya qarşı oynamağın mümkünlüyündən bəhs edən Miçel qrupdakı şansları da dəyərləndirib:** "Çempionatda keçirdiyimiz oyunların hamısında hələ ki qələbə qazanmışıq. Klubumuz çox yaxşı təşkil olunub, hər il addım-addım irəli gedirik. Artıq neçə ildir ölkə çempionu oluruq, Avropa kuboklarında da inkişaf edirik. İki il əvvəl Çempionlar Liqasında "Çelsi"yə qarşı oyunlar istisna olmaqla, hər şey yaxşı idi. "Atletiko" ilə hər iki görüşdə bərabərə qaldıq. Məncə, onları təəccübləndirdik. "Atletiko"ya qarşı oynamaq gözəl idi. Çünki belə matçlarda gözləntilər böyük olur. "Sevilya"ya qarşı da aqressiv oynamalıyıq. Onlarla başabaş oynamağın mümkünsüz olduğunu söyləmək doğru olmaz. Amma bizi necə ağır sınağın gözlədiyini bilirik".

Yeri gəlmişkən, "Qarabağ"da Miçel və Danidən sonra bu il ispandilllərin sayı artıb və "Sevilya"nın sabah meydanda nə danışdığını, Lopeteginin nə tapşırıqlar verdiyini onlar biləcəklər...









**❑ Orxan ƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 192 (7362) 18 sentyabr 2019



# Köpəkbalığı ilə əyləndiyi üçün həbs cəzası aldı

**ABŞ-ın Florida ştatında qəddar köpəkbalığı videosu çəkən bir sakin sadist əyləncələrə qatıldığı üçün 10 gün həbs cəzasına məhkum edildi. Bu barədə "Mail Online" nəşri məlumat yayıb.**

2017-ci ildə Bradentondan olan Robert Benac III, bir köpək balığını quyruğuna bağladığını göstərən bir video çəkib. Arxa planda bir neçə kişinin səsləri və gülüşləri eşidilir. Video Instagram-da köpəkbalığı ovçusu Mark Quartino tərəfindən yayımlanıb və tez bir zamanda virusa çevrilib. Sözügedən kadrlar heyvan müdafiəçiləri və hətta Florida qubernatoru Rick Scottun qəzəbinə səbəb olub. Kvartil, balıqçıların qəddarlığını hər kəsə göstərmək üçün bir video yerləşdirdiyini iddia edir.

Sonda isə Benak istintaqla razılaşdı və günahını etiraf etdi. Nəticədə məhkəmə ona heyvanlara münasibətdə ağır cinayət törətmək ittihamı ilə 10 gün həbs cəzası təyin etdi. Bu cəzanı o, həftə sonları çəkə bilər.

O, həmçinin 2,5 min dollar cərimələnib və heyvan sığınacağında 250 saat icma xidmətinə məhkum edilmişdi. Amerikan üç il müddətinə balıqçılıq lisenziyasından məhrum edildi.

Bu videonun çəkilişində Palmettodan olan 22 yaşlı gəmi kapitanı Maykl Wenzel də iştirak edib. Fevral ayında da buna bənzər bir məhkəmə işi baş tutdu və o da həftə sonu cəzasının yarısını çəkmək icazəsi ilə on gün həbs cəzası aldı.

Videoda üçüncü şəxs olan 24 yaşlı Spencer Heintz, dəlil çatışmazlığına, eləcə də Benak və Venzel əleyhinə ifadə verməyə hazır olduğu üçün məsuliyyətdən azad edildi.

# Müxalif deputatlar etiraz olaraq saçlarını keçəl etdirir

**Cənubi Koreyada ana müxalifətdəki Müstəqil Koreya Partiyasının lideri Huanq Kyo-ahn, ailəsi rüşvətlə ittiham olunan bir siyasətçinin keçən həftə ədalət naziri təyin edilməsinə etiraz üçün nazirlik binasının qabağında saçlarını keçəl etdirdi.**



Keçən həftə eyni partiyadan iki qadın deputat da bu qərara etiraz olaraq saçlarını keçəl etdirmişdi. Etirazların mərkəzindəki yeni maliyyə naziri Cho Kuk prezidentin keçmiş məsləhətçisi və təqaüdə çıxmış hüquq professorudur.

Amma nazirin həyat yoldaşı haqqında qızının universitetə girməsi və pulsuz təhsil ala bilməsi üçün sənəd saxtakarlığı həyata keçirdiyi ittihamları ilə cinayət işi qaldırılıb. Qalmaqalın ortaya çıxması digər universitet tələbələri arasında böyük qəzəb yaratmışdı.

# İki dəfə xərçəngə qalib gəldi və 4.6 milyon dollar uddu




**Amerikanın Oregon ştatının Bend şəhər sakini iki dəfə xərçəngə qalib gəlib və lotereyada böyük cekpotu udub. Bu barədə "The New York Post" yazır.**

Stu MacDonald həftədə bir dəfə Megabucks lotereya bileti alır. Onun sözlərinə görə, hər dəfə Klaudiyanın arvadı onu ruhlandıraraq deyir: "Bilet al, mütləq udacaqsan".

Sentyabrın 7-də MacDonald növbəti dəfə lotereya bileti aldı, amma Claudia ərinə uğurlar diləməyi unutdu. Bu zaman adam qalib oldu: 4.6 milyon dollar (295.3 milyon rubl) qazandı.

"Mən necə də şanslıyam! Xərçənglə iki dəfə mübarizə apardım, indi də belə bir qələbə. Bu, möhtəşəmdir" O, udan kimi pul mükafatını almağa qərar verdi və vergi ödədikdən sonra 1.5 milyon dollar əldə etdi.

Avqust ayının əvvəlində xəbər verildi ki, bir ingilis xərçəng şişini çıxarmaq üçün əməliyyat keçirib və daha sonra lotereyada 61 milyon funt sterlinq qazanıb.



# Fanatı olduğu şəxsə bənzəmək üçün 125 min funt sterlinq xərclədi

**İngilis oğlan Koreyanın BTS qrupundan Jiminə bənzəmək üçün təxminən 125 min funt sterlinq xərcləyib. Bu barədə "Daily Mail" məlumat yayıb.**

29 yaşlı Oli Landon (Oli London) 2013-cü ildə Cənubi Koreyada yaşadığı zaman BTS qrupunu fanatına çevrilib. "Mən bütün həyatımın K-pop ətrafında fırlanmasını istəyirəm" deyən Olinin sözlərinə görə, Jimin kimi görünmək istəyir. Çünki bu şəxs onun üçün mükəmməldir: "Onun hər şeyi mükəmməldir. Çənəsinin forması, dodaqları, səsi, hər şeyi".

Beş il ərzində Landon 15-dən çox plastik əməliyyatdan sağ çıxıb. 2018-ci ilin oktyabr ayına qədər görünüşünün dəyişdirilməsi xərcləri 75 min funt sterlinq təşkil edib. İyun ayında Seula qayıtdı və rinoplastika, burun qanadlarının düzəldilməsi, yanaq sümüklərinin və çənəsinin forması, həmçinin aşağı çənənin plastikası üçün daha 50 min sterlinq xərclədi.

# Bunları bilirsizmi?

* Göy üzündəki ulduzların sayı dünya üzərindəki bütün çimərliklərdəki qum dənələrinin sayından çoxdur.
* Meyvə kimi tanıdığımız ananas əslində tarlada yetişir və meyvə deyil.
* XIX əsrdəki bütün insanlar, indi 2 dəqiqə ərzində çəkilən şəkillərin sayı qədər şəkil çəkməyib.
* Su ayqırının südü ağ yox, çəhrayı rəngdə olur.
* Bir tırtılın bədənində 2000-dən çox əzələ var.
* Əqrəblər 1 il ac və susuz yaşaya bilər.
* Dəvəquşunun gözü beynindən böyükdür.
* 1000 saniyə təxmini 16dəqiqə, 1milyon saniyə təxmini 11gün, 1milyard saniyə təxmini 32 il, 1trilyon saniyə isə təxmini 32 min il edər.
* Qara rəngdə gördüyümüz "Coca-Cola"nın təbii rəngi əslində yaşıldır.
* Ən çox yağış yağan yer Havai adasında yerləşən bir dağdır. Bura ilin 350 günü yağış yağır.
* Böyrəklər hər 10-20 dəqiqədə bir bədəndəki bütün qanı süzür. Bu proses gündə 100-150 dəfə təkrar edilir. Bir gündə təxminən 500 l qan süzülür və 1,5 l sidik yaranır. Buna görə də həyatımız boyu orta hesabla 45.000 l sidik ifraz edilir.
* Dünyamızın işıq mənbəyi olan Günəşin təxminən 7 milyard il ömrü var.
* Kiçik zəlzələlər böyük zəlzələlərin baş vermə şansını azaldır.
* Motorlu vasitələr dəqiqədə 2 insanı öldürür.
* Sənayeləşmiş ölkələrdə insanlar gündəlik istifadə etdikləri ərzaq və qida məhsullarının tərkibində, təxminən 6-7 kq-a qədər həmin ərzaqların tərkibinə aid olmayan və sonradan əlavə edilmiş müxtəlif adda orqanizm üçün zərərli olan qarışıq maddələr yeyir.
* Sən dörd sətir oxuduqda dünyada 40 İnsan və 700 milyon qarışqa doğulmaqda, 30 insan və 500 milyon qarışqa ölür.
* Zəkalı insanların yuxusuzluq problemləri var.
* Hər gün dünya əhalisinin yeddidə biri, yəni 800 milyon insan ac qalır.
* İngiltərədə bir qadının orta hesabla 19 cüt ayaqqabısı var. Bunların 7 dənəsini istifadə edir.
* Qadınlar ömürlərinin 1 ilini nə geyəcəklərini düşünərək keçirirlər.
* Hər hansı bir dilin həmişə qorunması üçün o dildə ən azı 100 min insan danışmalıdır.
* Avropada ən qədim universitet İtaliyanın Palermo şəhərində, XI əsrdə yaradılmış tibb universiteti sayılır.
* Quşlar nəfəs aldıqları havanın dörddə üç hissəsini bədənlərini soyutmaq üçün istifadə edirlər. Çünki quşlar tərləyə bilmirlər.

# Nadir fobiyaya görə yalnız pendir sendviçi yeyir

**İngiltərə sakini nadir bir fobiyaya görə yalnız pendir sendviçi yeyir. Bu barədə "Daily Mirror" qəzeti məlumat yayıb.**



29 yaşlı Eyprel iddia edir ki, yemək qorxusu onda uşaqlıq yaşlarından başlanıb. Belə ki, uşaq ikən çörək və pendirdən başqa bütün yeməklər onda ürəkbulanması yaradırdı. "Yeni bir şey sınamaq istəyəndə çaxnaşma olur. Bütün bədənim titrəyir və mən çox əsəbləşirəm".

Qız iddia edir ki, hər yemək öncə onda boğulmaq qorxusu yaranır. O, bir neçə dəfə düyü, makaron və tərəvəz yeməyə çalışsa da, hər dəfə xoşagəlməz qoxulara görə onda ürəkbulanması yaranıb.

29 yaşlı qız İngilis sevgilisi ilə görüşəndə dərhal yemək vərdişi ilə bağlı problemlərdən bəhs edib. "O, yeni bir şey sınamağımı təklif etsə də, bu, mümkün deyil" deyən qıza görə, həyatı boyu bu formada diet davam edəcək.

Çoxsaylı fiziki müayinələr Eypreldə hər hansı problemlərin olmadığını üzə çıxarıb. "Pendir sendviçlərindən o qədər bezmişəm ki. Amma heç bir müalicə mənə kömək etmir. Bu qorxunu dəf edə bilmirəm" deyən qıza görə, pendir və çörəkdən başqa yeyə biləcəyi tək şey çipsdir.

İngilis qız gündəlik üç böyük qutu portağal suyu içir. Bu, onun gün ərzində aldığı yeganə vitamindir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.050